Xalqın qəzeti!

# Xalq qəzeti

№ 23 (30427) 3 fevral 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Azərbaycan COP29-la bağlı BMT ailəsi ilə fəal əməkdaşlığa hazırdır

## Prezident İlham Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stili qəbul edib.**

Bakının gözəlliyinin onda heyranlıq doğurduğunu deyən Saymon Stil COP29-un Azərbaycanda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Qonaq BMT-nin faktaraşdırıcı missiyasının artıq Azərbaycanda olduğunu və Azərbaycan tərəfi ilə səmərəli müzakirələr apardığını, İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un keçirilməsi ilə bağlı Azərbaycan tərəfindən görülən hazırlıq işlərinin yüksək qiymətləndirildiyini qeyd etdi. Saymon Stil BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının əməkdaşlarının Azərbaycanda müxtəlif sahələr üzrə tərəfmüqabilləri ilə çox məhsuldar görüşlər keçirdiklərini və müzakirələr apardıqlarını vurğuladı. O, COP29-un keçirilməsi üzrə Azərbaycanda yaradılmış təşkilat komitəsində qadınların yer almasını müsbət dəyərləndirdi. Qonaq qeyd etdi ki, artıq COP-un 28 dəfə təşkil edilməsi və təmsil etdiyi təşkilatın heyətinin COP-un keçirilməsi üzrə zəngin təcrübəsini nəzərə alaraq BMT ailəsi olaraq Azərbaycanı dəstəkləməyə və təcrübələrini bölüşməyə hazırdırlar.

*(ardı 2-ci səhifədə)*

# ABŞ-ın Azərbaycana hiddəti – 1976-cı ildən tətbiq edilməyən qanun

*Birləşmiş Ştatların ermənipərəst senatorlarının rüsvayçı təşəbbüsü*



**Avropa Şurası Parlament Assambleyasındakı anti-Azərbaycan şou kollektiv Qərbin ermənipərəst mövqeyinin ifadəsi idi. Bu "şou"nun okeanın o tayındakı seqmenti də "aktuallığını" saxlamaqdadır. AŞPA Azərbaycanda insan hüquq və azadlıqları ilə bağlı mənfi rəy yaradırdısa, eyni "fəaliyyəti" ABŞ-dakı ermənipərəstlər də reallaşdırmaqdadırlar. Belə nəticəyə gəlirik ki, ölkəmizdə Prezident seçkiləri yaxınlaşdıqca, beynəlxalq müstəvidəki yarıtmazlıqlar özünü hələ çox göstərəcək. Ancaq məsələ yalnız seçki ilə məhdudlaşmır.**

Bəli, Azərbaycana qarşı ənənəvi "qətnamə məntiqi" işə salınır. Söhbət Birləşmiş Ştatlar Konqresinin senatorları – Ed Marki və Bill Kesedi tərəfindən hazırlanmış sənəddən gedir. Bu iki qatı ermənipərəstin istədiyi nədir? Sən demə, Azərbaycandan insan hüquqlarının vəziyyəti ilə bağlı hesabat tələb etmək lazım imiş. Yəni, onların hazırladıqları qətnamədə bu məqam yer alıb. Sənədə müasir dövrün "çılğın ermənipərəstləri" sayılan senatorlar – Marko Rubio, Qari Piters, Elizabet Uorren, Şeldon Uaythaus, Bob Menendez və Piter Uelç də qoşulublar.

Göründüyü kimi, ortada heç bir əndazəyə sığmayan həyasızlıq, aşkar cəfəng əməl var. Təsəvvür edin ki, ABŞ Konqresi Azərbaycandan hesab sormalı imiş. İstər-istəməz düşünürsən: bu adamlar nə yeyib, nə içirlər? Onların psixi sağlamlıqları yerindədirmi? Bu şəxslər Konqresə necə seçiliblər? ABŞ dünya jandarmıdırmı?

Əslində, suallar çoxdur. Ancaq bu barədə düşünüb məntiq axtaran zaman bəzi məqamları yada salmaq lazımdır. Görəsən, ABŞ-ın "insan hüquq və azadlığını pozan rejimlərə" qarşı mübarizə adı altında apardığı intervensiya siyasətində hansısa məntiq var idimi? Xeyr! Birləşmiş Ştatlar İraqa hücum çəkdi ki, orada, guya, kimyəvi silah var. Kimyəvi silah tapıldımı?

*(ardı 3-cü səhifədə)*

# ATƏT PA-nın 80-dən çox nümayəndəsi seçkiləri izləyəcək

Səhifə ⇨ 8

# Əhali seçkilərdə fəal olacaq

**ABŞ-ın "Oracle Advisory Group" təşkilatı və "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası" Azərbaycanda seçki mühitinin ölçülməsi məqsədilə sosioloji sorğu keçirib. Sosioloji sorğunun keçirilməsində əsas məqsəd prezident seçkiləri ərəfəsində əhalinin səsverməyə hazırlığı və onların ölkənin siyasi həyatında iştirak səviyyəsinin, seçkilərlə bağlı ictimai rəyin öyrənilməsidir.**




Səhifə ⇨ 2

"Oracle Advisory Group" təşkilatı sorğunun nəticələri ilə bağlı fevralın 2-də Şuşa şəhərində mətbuat konfransı keçirib.

Təşkilatın nümayəndəsi Vlada Galan bildirib ki, sorğuya, ümumilikdə, Azərbaycanın müxtəlif rayonlarından 3 min respondent cəlb edilib. Bunlardan 24,1 faizi Bakıdan, 8,3 faizi digər böyük şəhərlərdən, 21,3 faizi kiçik şəhər və qəsəbələrdən, qalanları isə (46,3 faiz) kəndlərdən olub. Sorğuda iştirak edənlərin 49,3 faizi (1479 nəfər) qadın, 50,7 faizi (1521 nəfər) kişidir. Sorğu ölkə əhalisinin yaş statistikası nəzərə alınaraq aparılıb və respondentlərin 36,2 faizi 18-34 yaş arası, 39 faizi 30-54 yaş arası, 24,8 faizi 55 və daha çox yaşda insanlar olub. Respondentlərin 24,1 faizi Bakı, 4,8 faizi Naxçıvan, 6,1 faizi Abşeron-Xızı, 3,4 faizi Dağlıq Şirvan, 6,4 faizi Gəncə-Daşkəsən, 6,8 faizi Qarabağ, 7,2 faizi Qazax-Tovuz, 5,9 faizi Quba-Xaçmaz, 10 faizi Lənkəran-Astara, 7,8 faizi Mərkəzi Aran, 6,6 faizi Şəki-Zaqatala, 5,3 faizi Şirvan-Salyan bölgələrindəndir. Qərb təşkilatı olaraq ilk dəfə Qarabağda seçkilərlə bağlı sosioloji sorğu keçirmişik.

"Oracle Advisory Group" təşkilatının nümayəndəsi George Birnbaum sosioloji sorğunun nəticələrini açıqlayaraq bildirib ki, sorğu vərəqindəki suallar "Əhalinin prezident seçkiləri ilə bağlı məlumatlılıq səviyyəsi", "Ölkənin hazırkı vəziyyətinə münasibət", "Əhalinin siyasi fəallıq səviyyəsi", "Ermənistan–Azərbaycan münaqişəsi", "Vətən müharibəsinə dəstək" kimi qruplaşdırılıb.

*(ardı 2-ci səhifədə)*

# Paşinyan konstitusiyanı dəyişdirə biləcəkmi?

***Revanşistlərlə yanaşı, baş nazirin partiyasında da ona qarşı çıxanlar var***

**Ermənistanın baş naziri Nikol Paşinyan fevralın 1-də ölkəsinin ictimai radiosuna müsahibə verib. Müsahibə, eyni zamanda, baş nazirin "Facebook" səhifəsində də canlı yayımlanıb. Paşinyan müsahibədə ölkəsinin təhlükəsizlik arxitekturası, Rusiya ilə münasibətlər, Ermənistanın ərazisi, ordusu, iqtisadiyyatı ilə bağlı fikirlərini bölüşüb.**



Təbii ki, bizim üçün maraq kəsb edən əsas məsələ onun Azərbaycanla münasibətlərin gələcəyi barədə səsləndirdiyi fikirlər, sülh müqaviləsi ilə bağlı aparılan danışıqlara dair baxışları, sərhədlərin delimitasiya və demarkasiya prosesi, o cümlədən Ermənistan konstitusiyası və müstəqillik bəyannaməsi barədə dedikləridir. Hayastanın elektron media resursları Nikolun fikirlərini, əsasən, "Paşinyan Azərbaycanla sülhə maneə olan amili açıqladı" sərlövhəsi ilə yerləşdiriblər. Qeyd edilir ki, baş nazir Qarabağın adı keçən müstəqillik bəyannaməsini sülhə əsas maneə adlandırıb. Bildirib ki, Ermənistanın dövlət siyasəti müstəqillik bəyannaməsinə, Qarabağın və Ermənistanın birləşdirilməsinə əsaslanarsa, bizdə müharibə olacaq və heç vaxt sülh olmayacaq.

Bundan başqa, Paşinyan yeni konstitusiya barədə də fikirlərini bölüşüb. Deyib: "Legitim yanaşma belədir: mən sizdən nə gözləyirəmsə, siz də məndən onu gözləyin. Bu gün biz həqiqətən də müstəqillik bəyannaməsi ilə münasibətimizi tənzimləməliyik. Bizim dövlətçiliyi olmayan xalqdan dövləti olan xalqa çevrildiyimiz məqam məhz konstitusiya referendumudur".

*(ardı 4-cü səhifədə)*

# Cənub Qaz Dəhlizi öz imkanları ilə fəaliyyət göstərəcək




Səhifə ⇨ 9

# Su gələn arxa bir də gələr...



Səhifə ⇨ 11

# Türkiyə – Azərbaycan: dezinformasiyaya qarşı birgə mübarizə zərurəti

Səhifə ⇨ 4

# Prezident İlham Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibini qəbul edib

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev vurğuladı ki, beynəlxalq ictimaiyyətin yekdil mövqeyi ilə COP29-un Azərbaycanda keçirilməsi barədə qərar ölkəmizə etimadın və hörmətin təzahürüdür. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan tərəfi bu tədbirin uğurla keçirilməsi üçün bu təşkilatla və bütün BMT ailəsi ilə yaxından əməkdaşlıq etməyə hazırdır. Azərbaycanın beynəlxalq tədbirlərin təşkili üzrə zəngin təcrübəsinin olduğunu vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, COP29 ölkəmizdə keçirilən və ümumiyyətlə dünyada miqyasına görə ən çox iştirakçının qatıldığı tədbirlərdən biri olacaq. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfindən həm təşkilati, həm də tədbirin mahiyyəti nöqteyi-nəzərindən bütün zəruri addımlar atılır və bu baxımdan ölkəmiz beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlığı yüksək qiymətləndirir. Azərbaycan Prezidenti COP29-un təşkili prosesinə könüllülərin də yaxından cəlb olunacağını dedi.

Dövlətimizin başçısı qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi barədə qərar regional sülh gündəliyinin irəliyə aparılması kontekstində əldə edilib və bu da ümumiyyətlə COP-un tarixində yeni bir inkişafdır.

Prezident İlham Əliyev Azərbaycanın milli və regional səviyyədə yaşıl enerjiyə keçid istiqamətində təşəbbüsləri barədə məlumat verdi, COP29-un Azərbaycanda keçirilməsinin ölkəmizin yaşıl enerjiyə keçid istiqamətində səylərinə və bu sahədə beynəlxalq tərəfdaşlarla əməkdaşlığının daha da inkişafına təkan verəcəyinə əminliyini bildirdi.

Qonaq COP çərçivəsində Azərbaycanın sədrliyinin çox mühüm mövzuya – iqlim maliyyələşdirilməsi mövzusuna həsr olunduğunu və bunun COP-un gündəliyində duran ən vacib məsələlərdən biri olduğunu qeyd edərək, bu xüsusda çoxtərəfli diplomatiyanın və bütün tərəfdaşlarla inklüziv şəkildə işin aparılmasının vacibliyinə toxundu.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan həmişə çoxtərəfli diplomatiyaya mühüm əhəmiyyət verib və beynəlxalq təşkilatlarda, çoxtərəfli platformalarda daim çox fəal siyasət yürüdüb. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini və bunun Hərəkata üzv dövlətlər tərəfindən yüksək qiymətləndirildiyini qeyd etdi, ölkəmizin digər beynəlxalq təşkilatlarla da uğurlu əməkdaşlığını vurğuladı.

Görüşdə COP28-ə ev sahibliyi etmiş Birləşmiş Ərəb Əmirlikləri, COP29 və COP30-a müvafiq olaraq ev sahibliyi edəcək Azərbaycan və Braziliya arasında üçtərəfli əməkdaşlığın vacibliyi vurğulandı.

**AZƏRTAC**

# Əhali seçkilərdə fəal olacaq

(əvvəli 1-ci səhifədə)



George Birnbaum qeyd edib ki, "Əvvəllər Azərbaycanda keçirilən prezident seçkilərində iştirak etmisiniz?" sualına 34,9 faiz "demək olar ki, hər zaman" variantını seçib. Daha 28,4 faizi "hər zaman", 11,1 faizi isə "çox vaxt" cavabı verib. Bu isə əhalinin seçkilərdə fəallığının göstəricisidir.

Əhalinin prezident seçkiləri ilə bağlı məlumatlılıq səviyyəsinin öyrənilməsi məqsədilə ünvanlanmış "Hazırda ölkəmizin üzləşdiyi ən vacib problem hansıdır?" sualına 2,3 faiz iqtisadi vəziyyəti, 34,9 faiz məşğulluğu, 27,1 faiz əmək haqqını, 0,4 faiz Azərbaycanın beynəlxalq arenada rolunu, 0,1 faiz cinayətkarlığı, 14,1 faiz korrupsiyanı, 6,7 faiz təhsili, 0,2 faiz ekologiyanı, 13,1 faiz səhiyyəni, 1,1 faiz isə məişət zorakılığını qeyd edib.

Seçicilər arasında ölkənin "düzgün istiqamətdə" inkişaf etdiyi və Prezidentin uğurlu fəaliyyəti barədə əminlik hissi var.

"Azərbaycanın getdiyi yolun ümumi istiqamətini necə qiymətləndirirsiniz?" sualına seçicilərin 81,2 faizi "düzgün istiqamət", 12,3 faizi isə "yanlış istiqamət" cavabını veriblər.

"Hazırkı Prezident İlham Əliyevin gördüyü işləri necə qiymətləndirərdiniz?" sualına 96 faiz "əla", 2,5 faiz "yaxşı", 0,8 faiz "qənaətbəxş" cavabını veriblər.

Bundan əlavə, seçicilər Azərbaycanı yaşamaq üçün təhlükəsiz ölkə olduğunu hesab edirlər. Belə ki, "Azərbaycanın digər qeyri-sabit ölkələrdən fərqli olaraq, regionda ən sabit ölkə olması ilə razısınızmı" sualına, sorğuda iştirak edənlərin 85,4 faiz "bəli" cavabını veriblər.

"Prezident seçkiləri bu günə təyin edilsəydi və namizədlər aşağıdakı şəxslər olsaydı, kimə səs verərdiniz?" sualına verilən cavablar göstərir ki, respondentlərin böyük əksəriyyəti hazırkı ölkə rəhbərinin fəaliyyətindən razıdır. Belə ki, respondentlərin 97 faizi İlham Əliyevin, 1,2 faiz Zahid Orucun, 0,7 faizi Fazil Mustafanın, 0,5 faiz Razi Nurullayevin, 0,3 faizi Qüdrət Həsənquliyevin, 0,2 faiz Fuad Əliyevin, 0,1 faiz isə Elşad Musayevin adını çəkib.

Qarabağdakı qələbə ictimaiyyət tərəfindən Azərbaycanın böyük uğuru kimi qiymətləndirilir. Respondentlərin 98,50 faizi "Siz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün həyata keçirilən genişmiqyaslı hərbi əməliyyatları dəstəklədinizmi?" sualına müsbət cavab veriblər. Bu rəqəm yüksək milli ruhu nümayiş etdirir.

"Sizcə, Azərbaycanın ərazi bütövlüyünün bərpası ölkənin beynəlxalq aləmdə nüfuzuna necə təsir edib?" sualına respondentlərin əksəriyyəti - 72,5 faizi "müsbət", 2,6 faizi "mənfi", 24,9 faizi "neytral" variantını seçib.

George Birnbaum bildirib ki, bütün cavablar əhalinin mövcud hökumətin fəaliyyətinə münasibətinin açıq ifadəsidir. Belə ki, verilən cavablar əhalinin hazırkı hakimiyyətə olan inamını və dəstəyini əks etdirir.

Bu bloka daxil olan və Prezident İlham Əliyevə münasibətlə bağlı suala verilən cavablar seçicilərin siyasi meyli və səsvermənin nəticələri haqqında yekun fikir formalaşdırmağa imkan yaradır.

"Beləliklə, bilavasitə Prezident İlham Əliyevin fəaliyyətinə münasibətlə bağlı ictimai rəyin öyrənilməsinə yönəlmiş seçki öncəsi sorğunun nəticələrinə əsasən deyə bilərik ki, əhali İlham Əliyevin hakimiyyətinə inanır və onun siyasi xəttini dəstəkləyir", - deyə o əlavə edib.

ABŞ-ın "Oracle Advisory Group" təşkilatı və "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası" bu qənaətə gəlib ki, əhali fevralın 7-nə təyin edilmiş prezident seçkiləri ilə bağlı məlumatlıdır. Bu, dövlətin həyata keçirdiyi maarifləndirmə və məlumatlandırma işinin yüksək səviyyəsində aparılmasından xəbər verir.

George Birnbaum, həmçinin qeyd edib ki, seçki günündə exit-poll keçiriləcək, seçki məntəqələrində səs vermiş 10 minlərlə insandan sorğu götürüləcək.

# Dövlət qurumları İT rəhbərlərinin III toplantısı



**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən "Dövlət Qurumlarının İT rəhbərlərinin III Zirvə Toplantısı" keçirilib.**

Tədbirdə 73 dövlət qurumundan 100-dən artıq nümayəndə iştirak edib.

XRİTDX-nin rəis müavini, general–mayor Allahverən İsmayılov bildirib ki, tədbir dövlət qurumlarının informasiya təhlükəsizliyinin gücləndirilməsinə, xüsusilə də kritik infrastrukturların təhlükəsizliyi məsələlərinin müzakirəsinə, eləcə də cari ilin fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri dövründə dövlət informasiya sistemlərinin və ehtiyatlarının informasiya təhlükəsizliyinə təhdidlərin birgə qiymətləndirilməsinə həsr olunub.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları və Kommunikasiya şöbəsinin sektor müdiri Elmir Vəlizadə çıxışında bildirib ki, artıq üçüncü dəfədir belə bir sammit keçirilir. İnformasiya Təhlükəsizliyi sahəsində bütün qurumların məsul şəxslərinin iştirakı ilə keçirilən belə tədbirlərin çox mühüm əhəmiyyəti var. O vurğulayıb ki, qarşıdan gələn prezident seçkiləri ilə bağlı informasiya təhlükəsizliyi sahəsində çalışan hər bir qurum özündə mövcud olan informasiya sistemlərinin möhkəmliyini yüksək səviyyədə yoxlamalıdır.

XRİTDX-nin idarə rəisi Tural Məmmədov çıxışı zamanı bildirib ki, dövlət qurumlarının informasiya təhlükəsizliyini təmin etmək üçün təhlükəsiz şəbəkə qurulub. Xidmət tərəfindən dövlət qurumlarının saytlarına 911 milyon 430 min zərərli keçidlər bloklanıb. Həmçinin 7 milyon 122 min 200 zərərverici də son istifadə hallarında bloklanıb. Onların bir qismi xüsusi hədəflənmiş zərərvericilər olub. Zərərli faylların analizi sistemi vasitəsilə son 1 il ərzində 1 milyon 103 min 650 zərərli fayl aşkarlanıb. Son istifadəçilərin bu faylları endirib istifadəsinin qarşısı alınıb.

**XQ**

# Azərbaycanda bir ayda koronavirusdan 21 nəfər ölüb

**Azərbaycanda son bir ay ərzində (31 dekabr-31 yanvar) koronavirus (COVID-19) infeksiyasına yoluxanların sayı açıqlanıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, həmin müddətdə infeksiyaya 325 yeni yoluxma faktı qeydə alınıb.

COVID-19 yoluxan 217 nəfər sağalıb. Ay ərzində analiz cavabı müsbət çıxan 21 nəfər ölüb.

İndiyədək ölkədə ümumilikdə 834 min 630 nəfərin xəstəliyə yoluxması faktı müəyyən edilib, onlardan 824 min 089 nəfər müalicə olunaraq sağalıb, hazırda 141 aktiv xəstə var. Bu günə qədər 10 min 400 nəfər vəfat edib.

Məlumata görə, son ay ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 min 333, bu günə qədər isə ümumilikdə 7 milyon 748 min 50 test icra olunub.

**XQ**

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 316 (Cild I) 4.3-cü bəndində "400" rəqəmləri "369.26" rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 fevral 2024-cü il**

# Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Gəncləri Günü münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.**

Azərbaycan gənclərinə təbriklərini çatdıran Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Hər bir Azərbaycan gəncinə möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq, bütün təşəbbüslərində uğurlar diləyirəm!".




# İlk dəfə sülh şəraiti yaranıb

**Xarici işlər naziri Ceyhun Bayramov Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Marketa Pekarova Adamova ilə görüşüb.**



Ceyhun Bayramov Azərbaycan tərəfindən ətraf mühitin mühafizəsi, bərpaolunan enerji mənbələrinə keçid üzrə görülən tədbirləri, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ölkəmizin ev sahibliyi və bu sahədəki beynəlxalq öhdəliklərinə verdiyi önəmi qeyd edib.

Ceyhun Bayramov Azərbaycanın Aİ və üzv dövlətlərin etibarlı tərəfdaşı olduğunu, ölkəmizə qarşı ikili standartların tətbiqinin və ədalətsiz yanaşmanın sərgilənməsinin regionda dayanıqlı sülhün qurulmasına töhfə vermədiyini vurğulayıb. O, həmçinin Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan qərarın qəbul edilməsini və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini bildirib.

Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan və Ermənistan arasında 30 ildən sonra ilk dəfə olaraq sülh üçün real şərait yaranıb. Nazir Avropa İttifaqı və bəzi üzv dövlətlər tərəfindən hər hansı ad altında Ermənistana hərbi yardım göstərilməsinin və ya Ermənistana havadarlıq etməklə sülh prosesindən yayındırılmasının Cənubi Qafqaz regionunda dayanıqlı sülhün qurulmasına xələl gətirəcəyini vurğulayıb.

Görüşdə iki ölkə arasında gündəlikdə duran digər aktual məsələlər və qarşılıqlı maraq kəsb edən mövzular ətrafında fikir mübadiləsi aparılıb.

**XQ**

# Xankəndidə ordu gənclərinin forumu



**Xankəndi şəhərində Azərbaycan Ordusu gənclərinin forumu keçirilib.**

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Elçin Xəlilov Nazirliyin rəhbərliyi adından forum iştirakçılarına uğurlar arzulayıb.

Gənclər və İdman nazirinin müavini İndira Hacıyeva ordu gənclərinin dünyanı heyrətə gətirmiş şücaət və igidliklərindən böyük iftixar hissi ilə söz açıb.

Döyüş və ictimai-siyasi hazırlıqda fərqlənən ordu gənclərindən bir qrupuna Fəxri Fərman və qiymətli hədiyyələr təqdim olunub.

Həzi Aslanov adına Ordu İdeologiya və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifa etdiyi vətənpərvərlik mahnı və rəqsləri forum iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**XQ**

# Qərb siyasi ritorikasının iflası

**I məqalə**

> *Siyasətçilərin 90 faizi geridə qalanların imicini korlayır.*
>
> **Henri KİSSİNCER**



## “Danışan Qərb”in təzadları

Əlbəttə, Henri Kissincer siyasəti kənardan izləyən adam deyildi. O, xeyli dərəcədə uzun müddət dünya siyasətinin “mətbəx”ində ən sirli məqamlara belə əli çatan diplomat idi. Siyasətin “dərin adamı” kimi, H.Kissincer siyasətlə məşğul olanların 90 faizinin “saxtakar” olduğunu deyirsə və bunun da geridə qalan 10 faizinin adını batırdığını iddia edirsə...ortada çox ciddi, lakin əksəriyyətin bilmədiyi incəliklər vardır. Belə çıxır ki, Qərb siyasi mühitində sağlam adam tapmaq çətindir. Təbii ki, biz H.Kissincerin metaforik sarkazmının mənasını və reallığa nə dərəcədə uyğun olduğunu başa düşürük. Məsələ bunda deyil. Əsas məsələ müasir tarixi mərhələdə Qərb siyasi mühitinin “hansı bataqlıqda” çabaladığını araşdırmaq və onun səbəblərinə işıq salmaqdan ibarətdir.

Bu proses keçən əsrin ikinci yarısından daha aydın izlənməyə başlanmışdır. Bütövlükdə Qərb diplomatiyası əhəmiyyətli uğurlara da imza atmışdır. Lakin zaman-zaman onun heç də təbliğ olunduğu qədər güclü və sağlam olmadığı da aydınlaşmışdır. Bu özəllik ayrıca Çin və SSRİ istiqamətində aparılan siyasətin nəticələrində əksini tapmışdır. Bir neçə siyasi-diplomatik böhranın fonunda Qərb diplomatiyasının “ördək yerişi” politoloqların diqqətini çoxdan çəkmişdir. Xüsusilə, Karib, Körfəz, Vyetnam və Koreya böhranları, İrangeyt və digər Qərb siyasi-diplomatik şüurunun “yaraları” işığında məsələ xeyli aktuallaşmışdı.

Bu növ böhranların nəticəsində, hətta amerikan cəmiyyəti siyasi şok yaşamağa başlamışdı. O məqamda amerikalı politoloqlar və filosoflar “post-həqiqət” anlayışını işlətməyə başladılar. Qısa müddətdə bu termin Amerika və Avropa siyasi-diplomatik ritorikasının mərkəzi anlayışlarından birinə çevrildi. Onun işlənməsi o qədər genişləndi ki, 2016-cı ildə Oksford Ensiklopediyasında ilin sözü kimi verildi.

Bu terminin danışıq dövriyyəsinə buraxılması tarixi isə 1992-ci ilə təsadüf edir. Deməli, “post-həqiqət” nədirsə, Qərb siyasi və ictimai-mədəni həyatının linqvistik sahəsinin əsas anlayışlarından birinə çerilmişdir. Və bu keyfiyyətdə həmin termin Qərb siyasi reallığının performativlərindən biridir (yəni söz kimi həm də siyasi reallığı yaradandır). Elə isə bizcə, H.Kissincerin yuxarıdakı incə ritorikasının arxasından boylanan siyasi-diplomatik gerçəkliyə “post-həqiqət işığında baxmaq” lazım gəlir. Bu ifadədə müasir Qərb siyasi ritorikasının əsas məqamı əksini tapmışdır. Şübhəsiz, “post-həqiqət performativ”i indi Qərb siyasi reallıqlarında müşahidə etdiyimiz ritrorik iflasın məntiqi və məzmun özəlliklərini anlamağa imkan verəcək.

## “Post-həqiqət” (post-truth) fenomeni: nə doğru, nə həqiqi

Bu termini dramaturq Stiv Tesiç 1992-ci ildə Fars Körfəzindəki müharibə (1990-1991-ci illərdə aparılan Küveytin azad olunması müharibəsi) haqqında yazdığı essesində işlətmişdir. Bu terminlə o, amerikan xalqını pessimist olmamağa səsləmişdir. Müharibənin ABŞ üçün mənfi olan reallıqlarına, yəni həqiqətlərə deyil, toplumu motivasiya edə biləcək məqamlarına inanmağın daha faydalı olduğuna çağırırdı. Bu tezisi digərləri də işlədərək onu ictimai şüurun elementinə çevirmişlər. Tədricən Qərb siyasi, media, fəlsəfi-elmi ritorikasında bu termin daha geniş yer tutmağa başlamışdır. O, sadəcə dil elementi olaraq lokal bir mənanı ifadə edən termin olaraq qalmamışdır. Bütövlükdə ümumi konseptual status alaraq konkret davranış və fəaliyyət faktoru kimi linqvistik sahədə yerini möhkəmlətmişdir. Yəni post-həqiqət anlayış kimi müasir Qərb təfəkkürünün diqqət yetirdiyi termin statusuna yüksəlmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, bu proses 2016-cı ildə onu ilin sözü kimi müəyyən etməyə gətirib çıxarmışdır. Onu deyək ki, həmin prosesdə internet nəşrləri də təsirli rol oynamışdır. Məsələn, 2010-cu ildə bloger Devid Roberts Grist internet nəşrində “post-həqiqət” termininindən istifadə etmişdir.

Beləliklə, post-həqiqət və ya post-doğru həqiqətləri və doğruları söyləmək üçün deyildir. O, konkret zaman kəsimində cəmiyyəti motivasiya etmək üçün effekt verə biləcək informasiya manipulyasiyalarının sistemidir. Bura istənilən informasiyanı süni məzmunda verməkdən tutmuş, müxtəlif üsullarla onu geniş məkana yaymağın incə metodlarını hazırlamaq daxildir. Prosesdə mərkəzi rol KİV orqanlarının üzərinə düşür. Onlar öncədən verilən sifarişlər əsasında informasiyanın məzmununu müəyyən edirlər və ictimai şüura təsir yollarını aydınlaşdırırlar. Ardıcıl, davamlı və həqiqət oxşarlığı yüksək olan formada edilən təqdimat toplumda rəyi dəyişir. Və milyonlarla insan həqiqətə deyil, informasiya vasitələrinin “sırıdığı post-həqiqətlər”ə inanmağa başlayırlar. Bununla da ideoloji və informativ manipulyasiyalarla sosial, siyasi, iqtisadi, informativ xarakterli reallıqlar yaradırlar və insanları istədikləri istiqamətə yönəldirlər.

Ən təhlükəli məqam bu üsulda ondan ibarətdir ki, fərdlər və bütövlükdə toplum manipulyasiya olunduğunu anlaya bilmir. Ona elə gəlir ki, həqiqət uğrunda savaşır, doğrunu deyir və buna görə də azad, demokratik və humanist davranır. O özünü şərlə mübarizə aparan xeyir kimi təsəvvür edir. Bu da post-həqiqət qurbanlarının praktiki olaraq rəyini dəyişməyin ciddi çətinliklərinin olduğunu göstərir. Bir neçə misalda həmin məqamı aydınlaşdıra bilərik.

## Tipik post-həqiqət nümunəsi

Bu ifadəyə Qərb KİV-də tez-tez reallığı əks etdirən ifadə kimi rast gəlinir. Son illər onun işlənmə sayı milyonları keçmişdir. Sistemli, ardıcıl, zahiri cəhətdən məntiqi-rasional formada qərbli insanların beyninə yeridirlər ki, bütün bədbəxtliklərin baisi müsəlmanlardır. Səbəbi də ondan ibarətdir ki, İslam din kimi terrorçu yetişdirir, fərqli düşünənlərə qarşı dözümsüzlük yaradır və Qərb mədəni elementləri ilə uzlaşmayan mədəniyyəti, davranışları təbliğ edir. Buna görə də baş örtüyü (hicab) və bütövlükdə müsəlman geyimi köhnəliyi, ayrılıqçılığı, başqalarına nifrəti simvolizə edir.

Nəticə: onlar qadağan olmalıdır! Ancaq sadə insanlar öncə buna inanmırlar və etiraz edir, müqavimət göstərirlər. Bu da zaman keçdikcə radikal toqquşmalar yaradır ki, yalanla başlayan post-həqiqət real sosial mühitdə toplumda psixoloji və mədəni parçalanma yaradır. Bununla KİV-in canfəşanlığı sayəsində post-həqiqət ictimai şüurda real sosial-psixoloji gerçəkliyə çevrilir.

Lakin müəyyən dairələr bunlarla kifayətlənmirlər. Onlar öz ölkələrində anti-islam mövqeyini daha da genişləndirirlər və paralel olaraq müsəlman ölkələrində gənclərin ideoloji “zəhərlənmələri” əsasında antixristian əhval-ruhiyyəsi yaradırlar, “kafirlərlə müqəddəs savaş zərurəti” kimi təsəvvürlər formalaşdırırlar. Bu prosesi maliyyələşdirərək müsəlmanlardan ibarət radikal qruplar yaradırlar.

Onlar çoxlu sayda olur. Çünki həm, ümumiyyətlə, müsəlmanların birləşməsinə imkan vermirlər - onlarla ideoloji olaraq fərq incəliklərinə malik qrupa çevirirlər və bu əsasda digərlərinə qarşı istiqamətləndirilirlər, həm də hər birini konkret müsəlman ölkəsinə qarşı yönəldirlər. Nəticədə belə bir ümumi mənzərə alınır: geniş geosiyasi məkanda müsəlman ölkələrində qarışıqlıq yaratmaq, onların dövlət kimi imicini korlamaq üçün xüsusi “post-həqiqət informasiya şəbəkəsi” fəaliyyət göstərir. Bu prosesdə çox güclü dağıdıcı rol oynaya biləcək qruplar və təşkilatlar da yaradıla bilər. Konkret nümunəsi kimi Əl-Qaidə, İŞİD və digərlərini göstərmək olar. O da faktdır ki, bu növ təşkilatların liderlərini müəyyən xidmətdən sonra onları yaradan xüsusi xidmət orqanları məhv edirlər və milyonların gözündə “terrora qarşı mübarizə aparan dövlət” imiclərini formalaşdırırlar. Bunun da iki təbliğati hədəfi vardır.

Birincisi, yeni, daha gizli və daha “legitim” görünən post-həqiqət informasiya məkanı formalaşdırılır. İkincisi, bütövlükdə İslamofobiyanın şüurlara və psixologiyaya təsiri daha da genişlənir və dərinləşir.

Bütün bunların yekun informasiya məqsədi isə “İslam terror dinidir” böhtanını atmaqdan ibarətdir. Qərb cəmiyyətlərində bu səbəblərdən İslamofobiya getdikcə güclənir və toplumlarda dözümsüzlük artır. Çox düşündürücüdür ki, son illər artıq bu proses siyasi şüurda daha geniş yer almağa başlamışdır. Bir neçə fakta baxaq.

## Miqrantlara qarşı hibrid təhlükələr

İndi Qərbdə məhz bu saxta və əsassız məntiqlə səs toplamağa çalışan partiyalar az deyildir. Onlar sağ və sol siyasi-ideoloji düşərgələrdə getdikcə daha çox səs yığmağa başlamışlar. Demək olar ki, Avropanın bütün inkişaf etmiş ölkələrində təşkilatları vardır. Bura Fransa, İsveç, Almaniya, Avstriya, Belçika, İtaliya, Hollandiya kimi inkişaf etmiş ölkələr də daxildirlər. Hollandiya, Almaniya və Avstriyada daha radikal mövqeli islamofob ideologiyalı partiyalar vardır. Onların birbaşa ideoloji təxribatları, maliyyə və təşkilati dəstəyi ilə bir neçə dəfə Avropa ölkələrində Qurani-Kərim nümayişkaranə yandırılmışdır və bundan siyasi şou kimi istifadə etmişlər. Bununla milyonlarla avropalının psixologiyasında antiislam elementini daha da alovlandırmışlar. Belə radikal və fundamentalist əhval-ruhiyyənin formalaşmasında bir sıra Avropa siyasiləri, o cümlədən rəsmi adamları aktiv rol oynamaqdadırlar.

2021-ci ildə hazırlanmış beynəlxalq miqyaslı hesabata görə, 2017-2021-ci illərdə Avstriyanın baş naziri olmuş Sebastyan Kurts onların sırasında ilk yerdədir. Ən düşündürücü məqam ondan ibarətdir ki, Avropa mədəniyyətində xüsusi yeri olan Avstriyada S.Kurts siyasi karyerasını əsas olaraq xaricilərə qarşı düşmən mövqeyi üzərində qurmuşdur. Hesabatı hazırlayanlar onu belə ifadə etmişlər: “xaricilərə qarşı düşməncəsinə ritorika”! Burada müsəlmanlara qarşı çox mənfi münasibət ayrıca yer tutmuşdur. Buna görə də hesabat hazırlayanlar ayrıca bir bənddə S.Kurtsun müsəlmanlara qarşı atdığı addımları fakt kimi gətirərək təhlil etmişlər.

## Kurtsun antiislam islahatları

Öncə, onu vurğulayaq ki, həmin hesabat hər il Qərbdə çalışan ciddi imicli alimlər tərəfindən hazırlanır. 2021-ci il hesabatını Corctaun Universitetinin və Almaniya-Türkiyə Universitetinin professorları hazırlamışlar. Hesabatın hazırlanmasında insan haqları və ksenofobiyanı öyrənən 35 alim və ekspert də iştirak etmişdir.

Bundan başqa, hesabatı bir neçə nüfuzlu təşkilat dəstəkləmişdir. İslamofobiyanı Öyrənən Beynəlxalq Mərkəz, Rutgers Universitetinin hüquq, təhlükəsizlik və irq Mərkəzi, Kaliforniya Universitetinin İslamofobiyanı öyrənmə və sənədləşdirmək üzrə Layihəsi, San-Fransisko və Leopold Vays İnstitutunun ərəb və müsəlman etnik qruplarını öyrənən Proqramı və başqaları vardır.

Hesabatda göstərilir ki, Avropa ölkələrinin ictimai həyatının bir çox sahələrində islamofobiya özünü göstərmişdir. Bir sıra Avropa ölkəsində bu proses təşkilati xarakter almışdır.

Fransa və Avstriyanın qanunvericilik bazası isə İslama qarşı radikal mövqedə olan təşkilatların formalaşmasına hüquqi baza yaratmışdır. Bu artıq müasir cəmiyyətlərdə yeni bir hüquqi nonsesdir. Çünki heç bir aspektdə demokratiyaya, liberalizmə, insan haqlarına və söz azadlığına uyğun gəlmir. Filosoflar belə bir vəziyyəti Avropa cəmiyyətlərinin dərin parçalanması, onun şovinist və ultramillətçi mövqeyə yuvarlanması kimi qiymətləndirmişlər. Yurgen Habermas kimi filosof isə emosional şəkildə “Ey, Avropa” nidalı əsər yazmışdır! O, Avropanın ideoloji çöküşündən çox narahatdır və hazırda “Qoca qitə”də toplumsal həmrəyliyin sağlam yöndə getmədiyinə əmindir.

Bu da onu göstərir ki, Qərbdə post-həqiqət sindromunun yeni mərhələsi başlamışdır və onun ilkin fəsadları Avropa mədəniyyətini və siyasi şüurunu zəhərləməkdədir.

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

# ABŞ-ın Azərbaycana hiddəti – 1976-cı ildən tətbiq edilməyən qanun

**(əvvəli 1-ci səhifədə)**

Yox! Deməli, Vaşinqtonun davranışlarında məntiq və qanunauyğunluq istisnadır. Məqsəd istənilən “vasitəyə” bəraət qazandırır. Həqiqətən dəhşətli durumdur. Ancaq dəhşət yalnız söylədiklərimizdən ibarət deyil.

Haşiyə çıxaq ki, Birləşmiş Ştatlar Azərbaycandan ölkəmizin əsas hissəsi ilə Naxçıvanı birləşdirən yolun Ermənistandan keçməsinə çalışır. Özü də İrəvanın istədiyi şərtlərlə. Yəni, gömrük və sərhəd nəzarəti tətbiq edilməklə. Ölkəmiz bununla razılaşmır, Naxçıvana yolun “Azərbaycandan – Azərbaycana yol” məntiqi ilə, yəni, gömrük və sərhəd nəzarəti olmadan açılmasını istəyir. Nəticədə ölkəmiz sözügedən yolun İrandan keçəcəyini bildirir.



ABŞ isə buna görə Azərbaycanı, faktiki olaraq, hədələyir.

Sözümüz ondadır ki, əsassız demarş xarakterli mövqe bildirmək Vaşinqton üçün su içimi kimi bir şeydir. ABŞ hər bir dövlətin suveren seçiminin, maraq və mənafelərinin mövcudluğu amilini nəzərə almaqdan tam uzaqdır. Yəni, sərsəm, anti-demokratik ruhlu yanaşmaların hökm sürdüyü ölkədəki senatorların başqa cür düşünmələri mümkünsüzdür.

Beləliklə, Ed Marki və Bill Kessidi Konqresə, konkret olaraq, Xarici Yardım Aktının 502B(c)-ci bəndinə əsasən, Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı hesabat tələb edən qətnamə layihəsi çıxarıblar. Mövcud əsaslandırma Birləşmiş Ştatlara istənilən ölkədə insan hüquqlarının vəziyyəti ilə bağlı məlumat tələb etmək, həmin ölkəyə təhlükəsizlik sahəsində yardımı azaltmaq və ya tamamilə dayandırmaq imkanı verir.

Məsələnin imperialist mahiyyətinə nəzər salaq. Alınan məlumatlar əsasında ABŞ-ın hesabat aparılan ölkəyə təhlükəsizlik yardımı dayanacaqsa, bu, sanki İlahinin həmin ölkəni tərk etməsi mahiyyəti daşıyacaq. Belə çıxır ki, ərazi bütövlüyü və suverenlik məsələsi ikinci plana keçir. Hətta əhəmiyyətsizləşir. Yəni, ABŞ təhlükəsizlik dəstəyini dayandırırsa, ölkə, belə demək mümkünsə, havada qalır. Ona kim istəsə, hücum edə bilər və bu, Vaşinqton tərəfindən leqal qiymətləndiriləcək. Yəqin, antipod kimi qələmə verilən məmləkətə Birləşmiş Ştatların özü də hücum çəkmək “səlahiyyətindədir”.

Bəli, qaldırılan təşəbbüs son dərəcə mənfur xislətin məhsuludur. Necə deyərlər, utanmasan, oynamağa nə var? ABŞ senatorları arasında isə utanmaq hissiyatını itirənlərin sayı kifayət qədərdir. Onların qətnamələrində Birləşmiş Ştatların Dövlət Departamentindən Azərbaycanda həm ölkə daxilində, həm də “Qarabağa hücum zamanı” erməni əhalinin etnik təmizləməsinə səbəb olan insan hüquqlarının pozulması barədə məlumat tələb olunur.

Ümumən, onu da vurğulamaq lazımdır ki, müstəqillik illərində Azərbaycanda insan hüquq və azadlıqları ilə bağlı məsələ həmişə, bir qayda olaraq, Qarabağ münaqişəsi müstəvisində qaldırılıb. Nə vaxt ki, ölkəmiz Qarabağ həqiqətlərinə obyektiv qiymət verilməsini istəyib, o zaman xaricdə kimlərsə bəyanat verib, qətnamə çıxarıb Azərbaycanın təməl prinsiplərə, guya, hörmətsiz yanaşdığını vurğulayıb. Bir qədər də konkret deyək ki, Bakı sülh danışıqları zamanı Qarabağ ermənilərinin yaşamına təminat verəcəyini bəyan edəndə, xaricdəkilər ölkəmizdə insan hüquqlarının vəziyyəti ilə bağlı “dözülməz mənzərədən” söz açıblar. Təxminən belə: azərbaycanlıların hüquqlarına etinasız yanaşan hakimiyyət ermənilərin hüquqlarına hörmət bəsləyə bilməz...

Əslində, diqqətə çatdırdığımız “yanaşma” hazırkı dövr üçün də xarakterikdir. Baxın, senator Ed Marki vurğulayır ki, Azərbaycan hökumətinin məsuliyyətə cəlb edilməsinin vaxtı çoxdan çatıb: “Hərbi əməliyyatla Qarabağda sülh və sabitlik problemi həlli olmayıb. Bu qətnamə insan haqlarını qorumaq və regionda etnik ermənilərə qarşı cinayətləri dayandırmaq üçün Azərbaycan hökumətinə təzyiq göstərir. Biz Qarabağ xalqının iradəsini, hüquqlarını və əsas azadlıqlarını müdafiə etməliyik”.

Necə deyərlər, eyni dalğa, eyni koordinat. Əslində, digər senator Kessidinin də söylədikləri məşhur “Uzaq sahillərdə” filmində səslənmiş bu ifadəni yada salır. Kessedi deyir ki, Azərbaycan, guya, müqəddəs yerləri dağıdır: “Senatorların bu qətnaməsi Dövlət Departamentindən Azərbaycan tərəfindən törədilən insan hüquqlarının pozulması, o cümlədən, özbaşına qətllər, əsirlərə işgəncə verilməsi, etnik ermənilərin Qarabağdan deportasiyası, dini və mədəni obyektlərin dağıdılması ilə bağlı ətraflı məlumat verilməsini tələb edəcək”.

Qeyd edək ki, Xarici Dəstək Aktının 502B(c) bəndi ABŞ hökumətini beynəlxalq səviyyədə tanınmış insan haqlarını kobud şəkildə pozan hansısa ölkəyə Birləşmiş Ştatların təhlükəsizlik dəstəyini qadağan edən, lakin təcrübədə istifadə olunmayan qanundur. Nəzərə alaq ki, ABŞ-da heç bir məna daşımayan qanunlar külliyyəti istənilən qədərdir. Həmin sənədlər sırf mühafizəkar yanaşma məntiqi ilə qanunvericilikdən çıxarılmır. Məsələn, Xarici Dəstək Aktının 502B(c)-ci bəndi 1976-cı ildən bəri tətbiq edilmir.

Bəs indiki durum nə deməkdir? O deməkdir ki, Birləşmiş Ştatların ermənipərəstlərinin hiddəti o qədər böyükdür ki, onlar ölkənin qanunvericiliyindəki ən mürtəce məqamlardan da Azərbaycana qarşı istifadədə qərarlıdırlar. Bu qərarlılığı təsdiqləyən daha bir fakt var. Belə ki, ABŞ-ın Erməni Milli Komitəsi adlarını çəkdiyimiz senatorları qətnamənin qəbulu üçün fəallıq göstərməyə çağırıb və mövcud istiqamətdə geniş kampaniyaya start verib. Göründüyü kimi, əlavə şərhə ehtiyac yoxdur. Hər şey aydındır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Parlamentlərarası İttifaqın Baş katibi Ağdamda



**Ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq fevralın 2-də Ağdam şəhərinə səfər edib.**

Parlamentlərarası İttifaqın Baş katibini Milli Məclisin deputatı, Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsinin həmsədri Cavanşir Feyziyev, BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında Azərbaycanın daimi nümayəndəsi Qalib İsrafilov müşayiət ediblər.

Baş katibə Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklər, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri və şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin burada həyata keçirdiyi tikinti-quruculuq işləri barədə məlumat verilib.

**XQ**

# Türkiyə – Azərbaycan: dezinformasiyaya qarşı birgə mübarizə zərurəti

## İnformasiya müharibəsi milli təhlükəsizlik kontekstində

**İnformasiya hər bir cəmiyyət və dövlət üçün strateji məna kəsb edir. Müasir tarixi mərhələdə informasiyanın yayılması və idarəedilməsi birbaşa milli və dövləti təhlükəsizliklə əlaqələndirilir. Bunun bir səbəbi bütövlükdə indiki cəmiyyətlərdə informasiyanın rolunun artması və onun fəaliyyət dairəsinin genişlənməsi ilə bağlıdırsa, digər tərəfdən artıq cilalanmış metodlarla şüurların manipulyasiya edilməsi təcrübəsinin kifayət qədər olmasıdır. Faktdır ki, indi intellektual müharibələr adlandırılan yeni növ savaş üsulları birbaşa informasiya-kommunikasiya texnologiyalarının funksiyaları ilə əlaqəlidir.**

Məsələn, "hibrid təhlükə" adlanan termin yaradılmışdır. Bu termin siyasi anlamda informasiya ilə digər təsiretmə üsullarının sintezindən qarşı tərəfi məğlubiyyətə uğratmaq üçün hazırlanmış sistemli və strukturlu fəaliyyəti ifadə edir. "Hibrid fəaliyyət" nəticəsində düşmən kimi qəbul edilən cəmiyyət və dövlətin maddi, material resursları ilə yanaşı, informasiya, mənəvi-əxlaqi və mədəni resursları da iflic halına salına bilər.

Bu məqsədə nail olmağın özəl üsulları da mövcuddur. Onlar bütövlükdə açıq və ya gizli şəkildə qarşı tərəfin ictimai strukturlarına müxtəlif yönlü dağıdıcı və manipulyativ təsirləri özlərində ehtiva edirlər. Belə bir prosesin zaman məhdudiyyəti və ya fokuslanması olmur, o, sərhədsiz və birritmli deyildir. Situasiyadan asılı olaraq sürətlənə və ya zəifləyə bilər, lakin sonu yoxdur.

Araşdırmaçılar üçün maraqlıdır ki, informasiya savaşı zamanı tərəflər şüurlara təsirlər üzərində daha çox dayanırlar. Bunu dezinformasiyaların yaradılması və yayılması kanalları vasitəsilə reallaşdırırlar. Təbii ki, hər kəsə məlum olan üsullardan başqa, özəl və gizli təsir metodları da mövcuddur. Hər bir halda dezinformasiya qarşı tərəfin şüurunda manipulyativ effekt yaratmalıdır. Müasir mərhələdə məsələnin bu tərəfi milli təhlükəsizlik baxımından çox həssas faktor kimi qəbul edilir.

### Dezinformasiyanın anatomiyası

Dezinformasiya konkret məqsəd çərçivəsində toplumun müəyyən edilmiş kəsiminə fokuslanmış və xüsusi üsullarla reallığın təhrif olunmuş formada təqdimatına əsaslanan dağıdıcı və pozucu informasiya fəaliyyətidir. Dezinformasiyanın həmişə konkret hədəfi olur. Hədəfi "zərərsizləşdirmək" məqsədə çatmaq hesab olunur. Bu zaman hədəfin maddi məhvi şərt deyil və ya, ümumiyyətlə, onda maraqlı olmurlar. Dezinformasiyanın əsas funksiyası ictimai şüurun manipulyasiyası üçün münbit informativ şəraitin yaradılması ilə bağlıdır. Dezinformasiya insanları real həqiqətlərdən sapdırmağı və onları müəyyən dairələrin istəklərinə uyğun yönəltməyi nəzərdə tutur.

Bunun üçün, adətən, kütləvi informasiya vasitələrindən (media) istifadə edirlər. Alman sosioloqu Niklas Luman medianın cəmiyyətdə oynadığı "informasiya kanalı" rolunu dərin araşdırmışdır. Belə məlum olur ki, bu, çox güclü təsirə malik və faktiki olaraq dezinformasiya mənbəyini gizlədən prosesdir. Təhlükəli aspekti də mövcud özəlliklə bağlıdır. Mediakanallar cəmiyyətin mənəvi, əxlaqi, siyasi, iqtisadi və digər sferalarına təsir göstərirlər. Özü də, bu, ölkənin daxilində fəaliyyət göstərən informasiya vasitələrinin yardımı ilə gerçəkləşə bilir. Buradan şüurun manipulyasiyası məsələsinin çoxaspektliliyi və təhlükəliliyi nəticəsi çıxır.

### İnformasiya spekulyasiyaları

Filosoflar uzun müddətdir ki, şüurun manipulyasiyası məsələsini cəmiyyətin və dövlətin təhlükəsizliyi kontekstində təhlil edirlər. Onlar belə qənaətə gəlirlər ki, müasir dövrdə şüurun manipulyasiyası total xarakter almağa başlayır. İnsanların şüuru yalan informasiyaların təsiri ilə süni surətdə yönəldilir və zaman-zaman onlardan xüsusi məqsədlər üçün istifadə olunur. Faktiki olaraq ictimai rəyi bu əsasda dəyişməyə çalışırlar. Mövcud məqam xüsusilə böhranlı dövrlərdə daha çox özünü göstərir.

Məsələn, keçən əsrin 90-cı illərində Azərbaycana qarşı informasiya hücumları total xarakter almışdı və vətəndaşların şüurları manipulyasiya edilirdi. Proses konkret olaraq bir neçə istiqamətdə və müəyyən məqsədləri güdməklə həyata keçirilirdi. Həmin sırada azərbaycanlıların etibarsız, satqın obrazını yaratmaq cəhdi ayrıca seçilirdi. Digər istiqamət Azərbaycanda siyasi liderlərin öz xalqının deyil, şəxsi maraqlarını üstün tutduqları və buna görə real dövlət başçısı olmadıqlarını beyinlərə yeritməyə çalışırdılar.

Bu cür fəaliyyət xüsusilə ulu öndər Heydər Əliyevlə bağlı aparılırdı. Çünki düşmən bilirdi ki, nəinki Azərbaycanın, həm də regionun və dünyanın ən sanballı liderlərindən olan Heydər Əliyev ölkəni və cəmiyyəti qısa zamanda böhrandan qurtaracaq və inkişaf yoluna kökləyəcək. Doğrudan da, heç bir dezinformasiya və şüur manipulyasiyaları Ümummilli liderin qarşısını kəsə bilmədi və həmin mərhələdə Azərbaycan informasiya savaşından qalib çıxdı!

Dezinformasiyanın digər istiqaməti Azərbaycan ziyalılarının ləkələnməsi ilə bağlı idi. Keçən əsrin 90-cı illərində Azərbaycan alimləri, yazıçıları, elm və mədəniyyət xadimləri müxtəlif böhtanlara düçar olurdular. Bu savaşda da Ulu öndər sipər rolunu oynadı və düşmənə Azərbaycan ziyalılarını nüfuzdan salmaq imkanı vermədi.

Dezinformasiyanın başqa daha çox təhlükəli istiqaməti, bütövlükdə, Azərbaycan xalqının zəifliyini, dövlət qurmaq qabiliyyətinə malik olmadığını və ümumiyyətlə, satqınlığa meyilli olduğunu aşılamağa hesablanmışdı. Lakin yenə də Heydər Əliyev şəxsiyyəti bu yöndəki bütün fəaliyyətləri alt-üst etdi. Azərbaycançılıq ideologiyası və "... fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı xalqı ruhlandırdı, özünü yenidən tanıtdırdı. Azərbaycanlılar Cənubi Qafqazda həqiqi müstəqil dövlət qurmağı bacaran əsas xalq olduğunu dünyaya sübut etdilər.

Beləliklə, keçən əsrin 90-cı illərində Azərbaycana qarşı təşkil edilən informasiya savaşının beş başlıca hədəfinin olduğunu deyə bilərik: birincisi, bütövlükdə fərd kimi azərbaycanlıların ləyaqətsiz, fərasətsiz olmaları təəssüratını yaratmaq; ikincisi, Azərbaycan ziyalılarının, guya, mənəvi-əxlaqi və intellektual baxımdan qüsurluluğunu nümayiş etdirmək; üçüncüsü, Azərbaycan dövlətinin əsl liderlərinin olmaması fikrini aşılamaq; dördüncüsü, Azərbaycanın tərəfdaşlıq və əməkdaşlıqda etibarsız imicini yaratmaq (məsələn, enerji layihələrində); və nəhayət, bütövlükdə, Azərbaycan xalqının (və deməli, cəmiyyətinin) "keyfiyyətsiz olduğu" görüntüsünü formalaşdırmaq.




Sadalanan istiqamətlərin hər biri şüurlarda konkret təsirlər vasitəsilə xarakterizə olunurdu. Xüsusilə, Azərbaycanın enerji layihələri ilə bağlı dezinformasiyalar, insanları və sərmayə qoyanları qorxutmaq istiqamətində intensivləşmişdi. Onlar hətta dövlət çevrililişlərinə cəhd etdilər, Azərbaycan rəhbərliyini hədələdilər, Gürcüstan vasitəsilə əsassız iddialar irəli sürdülər, çirkli informasiya oyunu apardılar. Lakin Ulu öndər belə halların hamısını məharətlə neytrallaşdırdı və Azərbaycan XXI əsrin əvvəllərindəki informasiya savaşının ikinci mərhələsini də qalibiyyətlə başa vurdu.

Onu da vurğulayaq ki, eyni informasiya həmlələri Azərbaycan–Türkiyə münasibətlərinə qarşı da həyata keçirilirdi. İki qardaş dövlətin arasını vurmaq üçün dezinformasiyalar yayılırdı. O, cümlədən, Türkiyə-Ermənistan münasibətləri baxımından müəyyən məqamlar uydurulur, Ankara ilə Bakının arasını vurmaq cəhdləri göstərilirdi.

Bu prosesdə Osmanlı və Türkiyə Cümhuriyyəti dövlətinin tarixindən müəyyən fraqmentləri kontekstdən çıxararaq, xüsusi mətnlə anti-Azərbaycan ruhunda tədqim edirdilər. Müxtəlif dönəmlərdə iki qardaş dövlətin münasibətlərinə qərəzli, süni və qondarma "faktlar"ın prizmasında baxılmasına çalışırdılar. Və bütün bu informasiya təxribatlarını ortaq məqamda birləşdirən xüsusiyyət vardı. Prosesin qısa məzmunu belədir: Azərbaycana qarşı Türkiyə səmimi deyil, türklərin öz maraqları var (guya, hansısa marağı olmayan dövlət mövcuddur) və istənilən an Azərbaycana xəyanət edə bilərlər.

Bəli, Azərbaycana qarşı əsl düşmənçilik o qədər güclü idi ki, Rusiya və İran qətiyyən "yada düşmürdü". Onların düşmənə minbir hoqqa ilə etdikləri kömək, maddi və maliyyə yardımları, informasiya dəstəyi, psixoloji dayanışma mesajları qalmışdı arxa planda. Türkiyə tərəfdən ən kiçik qeyri-müəyyənlik isə şişirdilir və Türkiyənin milli dövləti marağı kimi anti-Azərbaycan ruhunda təqdim olunurdu. Bu, sözün əsl mənasında, azərbaycanlı şüurunda bir qarışıqlıq yarada bilərdi – qardaşı qardaşdan soyudardı!

Onu da vurğulayaq ki, mövcud prosesdə dini məzhəb faktorundan da düşmən aktiv istifadə edirdi. Bura yalnız ənənəvi şiə və sünni məzhəbçiliyi daxil deyildi. Qərbin və Yaxın Şərqin müxtəlif siyasi-ideoloji dairələri vəhabiliyin, radikal şiəlik və radikal sünniliyin, bütpərəstliyin, xristianlığın, iudaizmin, buddaçılığın və s. əlamətlərini azərbaycanlıların şüurlarına məhz Türkiyə ilə "dini fərqliliklər" kontekstində yeritməyə çalışırdılar.

XX əsrin 90-cı illərinin sonunda başlayaraq, XXI əsrin birinci onilliyinin sonuna və hətta ikinci on illiyin bir neçə ilinə qədər Azərbaycanın vətənpərvər mediası bu şüur manipulyasiyaları ilə aktiv mübarizə apardı. Mübarizənin memarı öncə Heydər Əliyev, sonrakı mərhələdə isə Prezident İlham Əliyev oldular.

Bizim xatirimzdədir ki, ideoloji təxribatçılar müxtəlif üsullarla küçələrdə, nəqliyyatda (metro, qatar, şəhərlər və ölkələrarası avtobuslarda) xristianlığın müxtəlif qollarını insanlara yalan əsasında təbliğ edirdilər və onların sırasında "Yehova şahidləri" adlı təşkilat xüsusi fəallıq göstərirdi. Hətta bir neçə azərbaycanlını xristianlaşdırmışdılar da. Və həmin azərbaycanlılar təbliğat aparırdılar ki, əsgərliyə getməyin, erməniyə güllə atmayın və s. Və bunları nə qədər primitiv olsa da, humanizmlə, insanlıqla və ermənilərə "qardaş" olmağımızla əlaqələndirməyə çalışırdılar. Bunun fonunda isə erməni işğlaçıların torpaqlarımızı zəbt etmələrinə, azərbaycanlılara qarşı zorakılıq törətmələrinə və Ermənistanın orduya malik olmasına haqq qazandırırdılar. Bütün bu informasiya zibilləri Azərbaycan dövlətinin yenilməz iradəsi ilə cəhənnəmə göndərildi.

Şüurun manipulyasiyasını, faktiki olaraq, daxildə təxribat fəaliyyətləri ilə –dezinformasiya, qorxutmaq, dəhşət yaratmaqla reallaşdırmağa cəhd göstərirdilər. Məsələn, XX əsrin sonları və XXI əsrin ilk onilliklərində Bakıda xüsusi xidmət orqanlaında işləyən bir Rostov ermənisi vasitəsilə qətllər törədən təşkilat yaratmışdılar. Həmin erməni İslam dini bəhanəsi ilə gəncləri ətrafına cəlb edə bilmişdi. Bəzi gənclər bu tələyə düşmüş və bir neçə tanınmış azərbaycanlını qətlə yetirmişdilər. Onları Azərbaycan təhlükəszilik orqanı yaxaladı. Məhkəmədə qətlin iştirakçılarından birinin çox təəccüblə erməniyə "sən ermənisən?" sualını verdiyi səhnəni görmək ibrətamizdir. Lakin erməni layiqli cəzasını aldı.

Azərbaycan bunları da aşdı və hazırda Rusiya ölkəmizin strateji müttəfiqidir! Rəsmi Moskva ilə Bakı konstruktiv əlaqələrini inkişaf etdirirlər. Bütövlükdə isə informasiya savaşı səngiməyib. Əksinə, bir neçə istiqamətdə daha da aktuallaşıb. Xüsusilə, Türkiyə – Azərbaycan birliyi kontekstində informasiya savaşına qarşı ortaq dayanışma yeni məzmun və məna kəsb etməkdədir. Bu aspektin isə üzərində geniş dayanmaq lazım gəlir.

**(ardı var)**

**F.MƏHƏMMƏDOĞLU**
**XQ**

# Paşinyan konstitusiyanı dəyişdirə biləcəkmi?



**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, Ermənistanın müstəqillik bəyannaməsi 1990-cı il avqustun 23-də qəbul edilib. Bəyannamədə Ermənistan SSR və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ali sovetlərinin 1989-cu il 1 dekabr tarixli "Ermənistan SSR-nin və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" birgə qərarına istinad olunur. Sənədin mətnində 1915-ci ildə Osmanlı imperiyasında ermənilərin, guya, soyqırımına məruz qalmasından da bəhs olunur. Həmçinin, 1915-ci il hadisələrinin beynəlxalq aləmdə "soyqırımı" kimi tanınmasına çağırış edilir. Beləliklə, bəyannamədə Azərbaycana və Türkiyəyə birbaşa ərazi iddiası öz əksini tapıb. Hayların 1995-ci il iyulun 5-də referendum yolu ilə qəbul olunmuş konstitusiyasının preambulasında isə müstəqillik bəyannaməsinə istinad olunur.

Qeyd edək ki, Ermənistan konstitusiyasının girişində müstəqillik bəyannaməsinə istinadın qalması Azərbaycanda haqlı etiraza səbəb olur. Bununla bağlı Prezident İlham Əliyev öz fikirlərini bir neçə dəfə ifadə edib. Hələ 2021-ci il sentyabrın 28-də dövlətimizin başçısı "Anadolu" agentliyinə müsahibəsində demişdi: "Əgər nə vaxtsa Ermənistan tərəfindən səslənən rəsmi açıqlamalar gerçək siyasətlə uzlaşsa, o zaman, əlbəttə ki, təhlil etmək daha asan olacaq. Bir də siz də yaxşı bilirsiniz ki, Ermənistan konstitusiyasında Türkiyəyə qarşı torpaq iddiası var, ondan əl çəkməlidir. Öz konstitusiyasını yenidən işləyib qəbul etməlidir. Ermənistan kimi gücsüz və bu gün tamamilə darmadağın edilmiş ölkə Türkiyə kimi nəhəng ölkəyə qarşı necə torpaq iddiasında ola bilər? Bu, psixi xəstəliyə bənzəyən bir şeydir. Ona görə Türkiyəyə və Azərbaycana qarşı iddialardan əl çəkməlidirlər..."

Prezident bu istiqamətdə 2024-cü il fevralın 1-də də mövqeyini bölüşdü. Həmin gün Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul edən dövlətimizin başçısı dedi ki, müstəqillik haqqında bəyannamədə Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var. Bu sənədə istinadlar da Ermənistanın konstitusiyasında öz əksini tapıb. Həmçinin Ermənistanın digər normativ-hüquqi sənədlərində ölkəmizə qarşı ərazi iddiaları, İrəvanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlər mövcuddur. Bununla yanaşı, Prezident vurğuladı ki, Ermənistanın beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı irəli sürdüyü iddiaların əsasını da İrəvan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmaması, Qarabağın Azərbaycandan ayrılması kimi məsələlər təşkil edir. Prezident İlham Əliyev qeyd etdi ki, bu iddialara son qoyulduğu, Ermənistan konstitusiyasında və digər normativ-hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər. Ermənistanda bunun tez bir vaxtda həyata keçirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı bildirdi ki, hazırda Ermənistanda bu mövzuda ölkədaxili müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.

Qeyd edək ki, Paşinyan Hayastana yeni konstitusiyanın lazım olduğu barədə ilk dəfə yanvarın 19-da ədliyyə nazirliyində keçirilən müşavirədə danışıb. Deyib ki, ölkəsinin "demokratik legitimliyinin və yaşarılığının təmin edilməsi üçün" konstitusiya islahatına yox, tamamilə yeni konstitusiyaya ehtiyacı var. Onun sözlərinə görə, yeni konstitusiya yeni geosiyasi və regional şəraitdə Ermənistanı "daha rəqabətli və həyatqabiliyyətli" etməlidir: "Ermənistan Respublikasının xalq tərəfindən səs verilmiş konstitusiyası olmalı və o, heç bir şübhəyə yer qoymamalıdır. Bu, onun legitimliyini təsdiqləyən mühüm addım olardı". Paşinyanın sözlərinə görə, yeni konstitusiya xalq səsverməsinə çıxarılmalıdır ki, onun nüfuzuna heç bir şübhə yeri qalmasın.

Ancaq onun bu fikirləri radikal-revanşist kəsimin nümayəndələrinin etirazı ilə qarşılanır. Hətta, Paşinyanın partiyasında da ona qarşı çıxanların olduğu bildirilir. Bu barədə "Hraparak" qəzeti yazır. Məqalədə deyilir: "Mülki müqavilə" partiyasında konstitusiyanı dəyişmək kimi anti-erməni planına qarşı çıxan bir qrup var. Onlar düzəlişlərin edilməsinin qarşısını almaq üçün ehtiyatla mübarizə aparmağa çalışacaqlar. İctimai etirazların güclənəcəyi təqdirdə, bu qrup da mübarizəni aktiv və açıq fazaya keçirəcək".

Yazıda qeyd olunub ki, baş nazir nəinki Ermənistan konstitusiyasını dəyişmək istəyir, o, ölkənin əsas qanununda müstəqillik bəyannaməsinə istinadı aradan qaldırmaq, həm də özünün xəyali "Dördüncü respublika"sının konstitusiyasını sıfırdan yazmaq qərarına gəlib.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə konstitusiyanın dəyişdirilməsi üçün başqa səbəblərin də olduğunu bildirib. Onun sözlərinə görə, konstitusiya dəyişiklikləri məsələsi həm də xarici əlaqələrlə bağlıdır. Bununla belə, Mirzoyan qeyd edib ki, konstitusiya ilk növbədə, daxili əhəmiyyət kəsb edən sənəddir.

**Mövzu ilə bağlı fikirlərini öyrəndiyimiz politoloq Fikrət Sadıxov** bildirdi ki, N.Paşinyan bu bəyanatları Azərbaycana



görə vermir. Onun sözlərinə görə, burada bir sıra səbəblər var: "Əvvəla, özünü Avropaya sülhpərvər hökumət başçısı, ölkəsini isə dünyaya sülhsevər dövlət kimi nümayiş etdirmək istəyir. Hazırda onun əsas məqsədi Avropa ilə yaxınlaşmaq, beynəlxalq strukturlarla əlaqələri daha da gücləndirməkdir. Digər tərəfdən, burada bir məqam da görünür. O, sadəcə olaraq, keçmiş rejimin qəbul etdiyi sənədlərdən imtina etmək istəyir. Daha doğrusu, onlardan canını qurtarmaq siyasəti yürüdür. Həmin sənədlər "Qarabağ klanı"nın, radikal-revanşistləri təmsil edən digər siyasi qüvvələrin əlində alət olaraq, qalmaqdadır. Paşinyan hesab edir ki, qanunvericilik sahəsində islahatların keçirilməsi ilə Ermənistanda yeni siyasi dövrün əsası qoyulacaq".

Siyasi şərhçi qeyd etdi ki, bu yanaşma müəyyən dərəcədə bizi də qane edir. Belə ki, Azərbaycana qarşı ərazi iddialarının Ermənistan konstitusiyasından çıxarılması ölkəmizi razı salan məqamdır: "Amma bizim də bir şərtimiz var. Bütün bunlar hamısı bəyanatlar şəklində və ritorik fikirlər olaraq qalmamalı, praktikada həyata keçirilməlidir. Paşinyanın bundan əvvəl də səsləndirdiyi bir sıra bəyanatlar bizim yaxşı yadımızdadır. Həmin bəyanatlar elə bəyanat olaraq qaldı. Ona görə də belə gurultulu bəyanatlar vermək çox asandır. Onları həyata keçirmək, reallaşdırmaq Paşinyana asan görünə bilər. Hər halda, ona qarşı çıxış edən radikal qüvvələr qarşısında konstitusiyada dəyişiklik etmək, yaxud yeni əsas qanun yaratmağı bacarsa, əlbəttə, bu, mənfi cəhət hesab oluna bilməz. Bu məqamda Paşinyan daha sabit, ardıcıl və sistemli siyasət aparmalıdır. Siyasi addımlar ritorik bəyanatlarla üst-üstə düşməlidir".

**Politoloq Yeganə Hacıyeva** isə bildirdi ki, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları Ermənistanda uzun illərdir



qanunvericilikdə təsbit olunub. Bu düşüncə şüurlara yeridilib və Paşinyan indi hayların düşüncəsini dəyişməyə çalışır. Onlar isə hələ də Qarabağ "sevdası" ilə yaşayaraq, konstitusiyanın dəyişilməsinə qarşı çıxırlar. Eyni zamanda, revanşistlər hər bir məsələdən olduğu kimi əsas qanuna dəyişiklik məsələsindən də baş nazirə qarşı istifadə etməyə çalışırlar: "Fikir versək görərik ki, Paşinyan Azərbaycanın Vətən müharibəsindəki qələbəsinə baxmayaraq, 2023-cü ilədək konstitusiya barədə danışmaqdan bəhs etmirdi. Görünür, o, nəyəsə ümid bəsləyirdi. Ancaq həmin il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri tamamilə yeni reallıqlar yaratdı, ordumuz Paşinyanın ümidlərini alt-üst etdi. Paşinyan, nəhayət, anlayır ki, Qarabağ de-fakto itirilib, indi bunu hüquqiləşdirmək lazımdır. Eyni zamanda, başa düşür ki, konstitusiyanın preambulasından müstəqillik bəyannaməsinə istinadı çıxarmadan Azərbaycanla sülh müqaviləsi imzalamaq mümkün olmayacaq. Bunu etməmək isə yeni hərbi toqquşmalara zəmin yarada bilər. Bundan əlavə, Ermənistanda Paşinyandan sonra iqtidara gələcək şəxslər konstitusiya və müstəqillik bəyannaməsindəki müddəadan dəstəvuz kimi istifadə edə bilərlər".

Siyasi ekspert qeyd etdi ki, İrəvan gerçəkdən sülh müqaviləsinin imzalanmasını istəyirsə, bu addımları atmalıdır. Onun sözlərinə görə, burada söhbət təkcə Azərbaycanı qane edəcək addımlardan getmir. Ermənistanın özünün təhlükəsizliyi məsələsi də var. Yəni, İrəvan qonşularla süh, əmin-amanlıq şəraitində yaşamaq istəyirsə, həm Türkiyəyə, həm də Azərbaycana qarşı ərazi iddialarını hüquqi müstəvidən yığışdırmalı, sülh müqaviləsini imzalamalı, sonra isə regionda nəqliyyat kommunikasiyalarının açılmasının verəcəyi faydalardan yararlanmalıdır.

***Səxavət HƏMİD***
***XQ***

# ƏDALƏT, HÜQUQ, DEMOKRATİYA



HƏSƏNQULİYEV QÜDRƏT MÜZƏFFƏR OĞLU

# ƏHDİMİZ ƏDALƏT, HÜQUQ, DEMOKRATİYADIR

**Əziz həmvətənlər!**
**Dəyərli seçicilər!**

**Azərbaycan Respublikasının Prezidentliyinə qeydə alınmış namizəd Qüdrət Müzəffər oğlu Həsənquliyevin "Böyük dəyişikliklər" adlanan seçki platformasının din və vicdan azadlığı, iqtisadiyyat və sosial siyasət, ekologiya, beynəlxalq əlaqələr və xarici siyasətlə bağlı hissəsini müzakirənizə təqdim edirik:**

## Din və vicdan azadlığı sahəsində:

- Din və vicdan azadlığının tam təmin olunması, dini icmaların özlərinə lider seçmək hüququnun tanınması, onların qanunla qadağan olunmayan fəaliyyətinə dövlətin müdaxiləsinə yol verilməməsi.

– Dinin siyasiləşdirilməsinin qarşısının alınması, dini fanatizmə və ekstremizmə qarşı mübarizənin və dini maarifçiliyin gücləndirilməsi, cəmiyyətdə sosial ədalətin təmin edilməsi.

– Bütün dövlət idarə, müəssisə və təşkilatlarında dini fəaliyyətin qadağan olunması;

– Ailə, milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində kompleks qərarların qəbulu.

## İqtisadiyyat və sosial siyasət sahəsində:

– Ciddi iqtisadi islahatların həyata keçirilməsi, bu məqsədlə xaricdən yüksək ixtisaslı məsləhətçilərin dəvət olunması;

– Dövlətin nəzarət etdiyi iqtisadiyyatdan azad bazar iqtisadiyyatı modelinə keçidin təmin edilməsi;

– Dövlətin sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına yol verilməməsi, iqtisadiyyatda yalnız tənzimləyici rol oynaması;

– Sahibkarlığın inkişafına daha əlverişli şəraitin yaradılması, sahibkarlıq fəaliyyətinə əsassız, kənar müdaxilələrin tamamilə aradan qaldırılması, sahibkarların hüquqlarının qorunması;

– Xidmət sahələrinin, "Azərsu", "Azəristilik", "Azərişıq" və "Azərqaz" səhmdar cəmiyyətlərinin bu sahədə böyük təcrübəyə malik özəl şirkətlərə uzunmüddətli idarəetməyə verilməsi, yaxud özəlləşdirilməsi

– Dövlət müəssisələrinin özəlləşdirilməsi və ya uzunmüddətli idarəçiliyə verilməsi, inhisarçılığa son qoyulması

– 2027-ci ildən başlayaraq hər il Bakı şəhərində 10 yeni metro stansiyasının istifadəyə verilməsi, Bakı kəndlərinə, hava limanına və Sumqayıt şəhərinə tramvay xətlərinin çəkilməsi, bu məqsədlə xarici investorlarla danışıqlara başlanılması;

– Bakı-Tbilisi-Ankara-İstanbul sürət qatarının tikintisi üçün Türkiyə ilə (maglev) dəmiryol xəttinin çəkilməsinə dair danışıqlara başlanılması;

– Bütün qeydiyyatsız evlərin bir il ərzində sənədləşdirilməsi. Təhlükəli ərazilərdə yerləşən evlər üçün dövlət tərəfindən kompensasiya ödənilməsi;

– Kənd təsərrüfatının inkişafına dövlət yardımının genişləndirilməsi, bu istiqamətdə şəffaflığın təmin edilməsi;

– Mülkiyyətin toxunulmazlığının təmin olunması;

– İqtisadiyyatın və dövlət büdcəsinin gəlirlərinin neft amilindən asılılığının azaldılması üçün məqsədyönlü proqramların qəbul edilməsi;

– Tədricən sərbəst (üzən) məzənnəyə keçilməsi, xarici bankların Azərbaycana dəvət olunması;

– Azərbaycanın bütün rayon və kəndlərinə təbii qaz verilməsinin təmin edilməsi;

– Dövlət Neft Fondunun (NF) fəaliyyətində şəffaflığın və fondun vəsaitlərindən səmərəli istifadənin təmin olunması;

– NF-nin Müşahidə Şurasının tərkibinin yarısının parlamentdə təmsil olunan müxalifət partiyalarının təqdim etdiyi şəxslərdən təşkil olunması;

– Ölkənin daxili siyasətinə xarici təsirlərin qarşısının alınması üçün, həmçinin inhisarçılığa yol verməmək məqsədilə Dövlət Neft Şirkətinin və AZAL-ın ən azı 3 hissəyə bölünərək özəlləşdirilməsi;

– Sahibkarlarla məmurların təmasını minimuma endirmək üçün elektron əlaqə sisteminin inkişaf etdirilməsi;

– Xarici investisiyaların qeyri-neft sektoruna cəlb olunması;

– Gəlirlərin leqallaşdırılması barədə qanunun qəbul olunması;

– Kölgə iqtisadiyyatına son qoymaq məqsədilə hər bir vətəndaşa qanunun qüvvəyə minməsindən keçən 6 ay ərzində öz gəlirlərinin və əmlaklarının mənşəyini göstərmədən onların məbləği barədə müvafiq dövlət qurumlarına məlumat vermək hüququnun tanınması;

– Əmlakı və gəlirləri barədə hesabat verməyən vətəndaşların qanunla məsuliyyətə cəlb olunması;

– Kənd rayonlarında istehsal və emal müəssisələrinə yatırılan investisiya geri götürülənədək həmin müəssisələrin vergilərdən tam azad edilməsi, növbəti 5 ildə isə 50%-dək vergi güzəştlərinin tətbiq olunması;

– Turizmin inkişafına dair proqramların həyata keçirilməsi;

– Ölkənin ərzaq təhlükəsizliyi üçün yerli istehsalın stimullaşdırılması, xaricdən idxal olunan məhsulların keyfiyyətinə nəzarətin gücləndirilməsi

– Daxili bazarın və milli istehsalçıların mənafelərinin qorunması

– Korrupsiya və rüşvətxorluğa qarşı ciddi və sistemli mübarizənin aparılması

– Vergi intizamının gücləndirilməsi;

– Kiçik sahibkarlar üçün 5 % gəlir vergisinin nəzərdə tutulması;

– Dövlət qulluqçularının əmək haqlarının onların layiqli həyatını təmin edə biləcək səviyyəyə çatdırılması;

– Pensiyaların minimum həddinin orta aylıq əmək haqqının 80%-nə çatdırılması;

– Qadınlar üçün pensiya yaşının 59-a, kişilər üçün 61-ə endirilməsi

– Pensiya yaşına çatmış şəxslər vəfat etdikdə onların pensiya fondunda toplanmış vəsaitlərinin varislərinə verilməsi;

– Əhalinin mənzil probleminin həlli üçün dövlət səviyyəsində proqramların həyata keçirilməsi;

– İpoteka kreditləşməsi üçün hər il dövlət büdcəsindən ayrılan vəsaitin artırılması;

– Sosial müdafiəyə ehtiyacı olan müxtəlif təbəqələrə (qaçqın və köçkünlərə, evsiz insanlara, əlillərə, kimsəsiz uşaqlara və s.) dövlət qayğısının artırılması, uşaqlara "uşaqpulu" adlanan müavinətlərin verilməsi;

– Əhalinin qaz, su və elektrik enerjisi ilə normal qaydada təmin edilməsi və onların qiymətlərinin əhalinin alıcılıq qabiliyyətinə uyğunlaşdırılması;

– 15 yaşınadək uşaqlar üçün geyim əşyalarının və digər ləvazimatların, o cümlədən uşaq qidalarının vergidən və gömrük rüsumundan azad edilməsi, bu tip məhsulları istehsal edən müəssisələrə vergi güzəştlərinin müəyyən olunması.

## Ekologiya sahəsində:

– Ekologiya və ətraf mühitin qorunmasıyla bağlı xüsusi dövlət proqramının qəbul edilməsi və həyata keçirilməsi

– Ermənistanda yerləşən Metsamor Atom Elektrik Stansiyasının fəaliyyətinin dayandırılması üçün bütün diplomatik vasitələrdən istifadə edilməsi;

– Bakı şəhərində standartlara uyğun gəlməyən yaşayış məskənlərinin sakinlərinin elan olunmuş müsabiqədə qalib gələn şirkətlər tərəfindən mənzillərlə təmin olunması, həmin ərazilərdə yaşayış evlərinin, parkların, istirahət guşələrinin və yaşıllıq zolaqlarının salınması, sadalanan işləri həyata keçirən şirkətlərə güzəştli kreditlərin verilməsi;

– Ölkənin müxtəlif bölgələrində məhv edilmiş meşələrin və yaşıllıq zolaqlarının bərpa edilməsi və yenilərinin salınması;

– Dövlət Neft Şirkətinə məxsus olan istismarı dayandırılmış neft quyularının yerləşdiyi ərazilərin təmizlənməsi və abadlaşdırılması;

– Neftayırma zavodunun, ətraf mühiti zəhərləyən digər müəssisələrin Bakı şəhərinin mərkəzindən kənara çıxarılması.

## Beynəlxalq əlaqələr və xarici siyasət sahəsində:

– Azərbaycanın qonşu və region dövlətləri ilə bərabərhüquqlu münasibətlərinin qorunması və inkişaf etdirilməsi;

– Qərbin siyasi dəyərlərinin və hüquq sisteminin mənimsənilməsinin təmin edilməsi;

– Beynəlxalq (Ümumdünya Ticarət Təşkilatı) və regional iqtisadi təşkilatlara üzv olmaq;

– Avropa İttifaqı modelində Türk-Slavyan Respublikaları İttifaqı ideyasının genişləndirilməsi, bu ittifaqa keçmiş sovet respublikalarının və İranın daxil olmasının mümkünlüyünün təbliği;

– Azərbaycan Respublikasının Rusiya Federasiyası, eləcə də Rusiyanın sərhədyanı subyektləri, o cümlədən türk respublikaları ilə birbaşa əlaqələrinin inkişaf etdirilməsi, bu respublikalarda yaşayan xalqlarla dostluq münasibətlərinin qorunub saxlanılması və inkişaf etdirilməsi

– Azərbaycandan kənarda yaşayan vətəndaşlarımızın haqlarının beynəlxalq hüquq normaları çərçivəsində qorunmasının təmin edilməsi

– İranla münasibətlərdə Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın öz dillərində yazıb-oxumaq və mədəniyyətlərini inkişaf etdirmək hüququnun daim gündəmdə saxlanılması;

– Azərbaycanın Türkiyə və digər türk dövlətləri, eləcə də türk toplum və qurumları ilə siyasi, hərbi, elmi, mədəni, iqtisadi əlaqələrinin genişləndirilməsi;

– Türkiyə ilə ümumi bazara keçidlə bağlı danışıqlara başlanılması;

– Təhlükəsizlik sahəsində Türkiyə, Rusiya, İsrail, Pakistan və region ölkələri ilə əməkdaşlığın genişləndirilməsi.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı




# Prezidentliyə namizəd Fuad Əliyevin

## SEÇKİ PLATFORMASI

### "Vətəndaş Birliyi" seçki qərargahının namizədi Fuad Əliyevin seçki

### PROQRAMI:

#### İdarəetmədə islahatlar:

* Azərbaycanda dövlət idarəetməsində vətəndaş cəmiyyətlərinin iştirakının gücləndirilməsi;

* Ölkənin ərazi idarəetməsində islahatlar aparılması. Prezidentin 7 region üzrə nümayəndəliyinin formalaşdırılması. Mövcud icra hakimiyyətlərinin səlahiyyətlərinin bələdiyyələrə verilməsi;

* Nazirlər Kabinetinin səlahiyyətlərinin vitse-prezidentlik institutu ilə əvəz edilməsi;

* İdarəçilik sistemində bürokratiyanın qarşısını almaq məqsədilə dövlət idarələrinin təmərküzləşdirilməsi;

* Ordu quruculuğunda çağırış sistemindən imtina edilməsi, peşəkar döyüş qabiliyyətli ordunun qurulması.

#### Sosial-iqtisadi hədəflər:

* Əhali üçün yanacaq və elektrik enerjisi qiymətlərinin 2024-cü il aprelin 1-dən aşağı salınması;

* Azərbaycanda yaşayış minimumunun, habelə sosial müavinət və pensiyaların artırılması. İnflyasiya göstəricilərini nəzərə alaraq minimum aylıq əməkhaqqının 500 manata qədər artırılması. Pensiya yaşının kişilər üçün 62, qadınlar üçün 59 yaş həddində müəyyən edilməsi.

* Müəllimlərin və həkimlərin maaşlarının artırılması ilə təhsil sistemində və tibdə korrupsiyaya qarşı ünvanlı islahatların aparılması. Həkim və müəllimlərin 5 ildən bir əlavə sertifikasiya imtahanlarının ləğv olunması;

* Ali təhsil sistemində rəqəmsal, habelə innovativ və nanotexnologiyalar üzrə mütəxəssislərin hazırlanmasına xüsusi diqqətin ayrılması. Mühəndislik və informasiya texnologiyaları kimi ixtisasların populyarlaşdırılması;

* Azərbaycan təhsilində 1985-ci ildən əvvəl dünyada ən yaxşı hesab edilən orta məktəb təhsili ənənələrinin bərpa edilməsi. Kurikulumdan imtina edilməsi;

* Vətəndaşların ödədiyi vergilərin azaldılması;

* Çörək istehsalının satışına və qiymətlərinə nəzarətin dövlətin inhisarçılığında olması;

* Bakı şəhəri və digər böyük şəhərlərdə 7 mərtəbədən yüksək binaların tikilməsinə rəsmi qadağa qoyulması.

#### Beynəlxalq fəaliyyət:

* Azərbaycanın neytral ölkə statusunun rəsmi elan edilməsi;

* NATO və KTMT-yə bitərəf münasibətin saxlanması;

* Şanxay Əməkdaşlıq Təşkilatına və Avrasiya İqtisadi Birliyinə qoşulmaq istiqamətində fəaliyyət göstərilməsi və Türkdilli dövlətlərlə əməkdaşlığın gücləndirilməsi. Ölkəmizin GUAM təşkilatından çıxması;

* Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə ata-baba torpaqlarına qayıdışının beynəlxalq müstəvidə ədalətli həllinə nail olunması.

**Hörmətli Azərbaycan Respublikasının vətəndaşları!**
**Əziz seçicilər!**

**7 fevral 2024-cü il tarixi Azərbaycan dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı kimi əlamətdar olacaqdır.**

**Bu günü Azərbaycan tarixinə qızıl hərflərlə yazmaq, gələcək nəsillər üçün suveren Azərbaycanı qoruyub yaşatmaq, ata-babalarımızdan bizə əmanət qalan dövlətçiliyimizi əmin dövlət başçısına etibar etmək Sizin əlinizdə olacaqdır. Müstəqil ölkənin müstəqil vətəndaşları olaraq seçkiyə gəlmək və layiq bildiyiniz namizədə səs vermək seçki günü ölkəmiz adına görə biləcəyiniz ən şərəfli iş və böyük vəzifədir.**

**"Vətəndaş Birliyi" seçki qərargahı vətəndaşlarımızın gələcək rifahı, dövlətimizin əbədi müstəqilliyi və suverenliyimizin qorunması üçün təsis olunmuş və Prezident seçkilərində mənim namizədliyimi irəli sürmüşdür. Vətəndaşlarımızın şəxsimə olan etimadını və inamını doğrultmaq üçün Prezident seçkilərində namizəd olmağı qəbul etmiş və bu məsuliyyəti dərindən dərk edərək seçkilərdə iştirakı şərəfli vəzifə hesab etmişəm.**

**Bu gün nəinki bizim dostlarımız, hətta bizi sevməyən bədxahlar belə ölkəmizin qazandığı uğurlardan və qələbələrdən heyranlıqla bəhs edirlər. Azərbaycanın bugünkü inkişafının davamlılığını təmin etmək, onu məkrli təsirlərdən qorumaq hər bir vətəndaşın və dövlətə rəhbərlik edən şəxsin çiyinlərinə ali və böyük məsuliyyət qoyur.**

**"Vətəndaş Birliyi" seçki qərargahının müəyyənləşdirdiyi və namizəd kimi rəhbər tutduğum prinsipial tezislər:**

**– MİLLİ BARIŞ, MƏSULİYYƏTLİ HAKİMİYYƏT.**
**– PREZİDENT XALQIN XİDMƏTİNDƏ OLMALIDIR!**
**– NEYTRAL AZƏRBAYCAN.**
**– İNSAN ZƏKASI NEFT VƏ QAZDAN DAHA ƏHƏMİYYƏTLİDİR.**
**– KORRUPSİYAYA YOX, YÜKSƏK QİYMƏTLƏRƏ YOX, İNHİSARÇILIĞA YOX.**
**– AŞAĞI VERGİ, DÖVLƏT QAYĞISI, LAYİQLİ MAAŞ.**
**– VARLI VƏTƏNDAŞ – VARLI ÖLKƏ.**

**Əziz seçicilər!**
**Seçkiyə gəlin və gələcəyinizə səs verin!**
**Layiqli həyatınızı FUAD ƏLİYEV ilə qazanın!**

# Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat, prezidentliyə namizəd Razi Nurullayev

## Razi Nurullayevin seçicilərlə görüşləri davam edir





**Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat, prezidentliyə namizəd Razi Nurullayevin seçicilərlə görüşləri davam edir.**

**“Sosial ədalət, sosial demokratiya” şüarı ilə seçkilərə qatılan namizəd cəmiyyəti narahat edən məsələlərə diqqət yetirir, ölkənin əsas problemlərindən, onların həlli yollarından, platformasından danışır, seçicilərin qayğılarını dinləyir.**

**Razi Nurullayev sonda seçicilərin suallarını cavablandırır.**












# Növbədənkənar prezident seçkiləri önəmli tarixi hadisədir

## MDB Missiyasının aralıq hesabatı



**Bütün səviyyələrdəki seçki komissiyaları Azərbaycanda seçkilərin keçirilməsi üçün zəruri tədbirləri görür: hər şey ölkə qanunvericiliyinə ciddi şəkildə uyğun təşkil olunub. Bu barədə MDB müşahidəçilər missiyasının seçkilərə hazırlıqla bağlı monitorinqinin nəticələrinə dair aralıq hesabatında bildirilib.**

Seçki kampaniyasının monitorinqi çərçivəsində MDB-dən olan uzunmüddətli müşahidəçilər ölkə ərazilərində olmuş, dairə və məntəqə seçki komissiyalarının işi ilə yaxından tanış oldular. Buraya Abşeron, Ağsu, Goranboy, Qobustan, Quba, Qusar, Cəlilabad, Yevlax, İmişli, İsmayıllı, Lənkəran, Masallı, Sabirabad, Salyan, Siyəzən, Ucar, Xaçmaz, Şabran, Şamaxı rayonları, Naxçıvan MR, Bakı, Gəncə, Yevlax, Lənkəran, Şirvan şəhərləri daxildir.

MDB Missiyasının nümayəndələri hesabatda qeyd ediblər ki, komissiyalar səsvermənin təşkili üçün zəruri olan rabitə vasitələri, ofis avadanlığı və s. ilə təmin olunublar.

Seçki prosesinə və dövlətin daxili işlərinə qarışmadan Azərbaycan qanunvericiliyini, birlik çərçivəsində qəbul edilmiş sənədləri rəhbər tutmaqla öz funksiyalarını sərbəst və müstəqil şəkildə həyata keçirməsi hesabatda öz əksini tapıb.

MDB-dən olan müşahidəçilər seçkilərə hazırlığın monitorinqi çərçivəsində Mərkəzi Seçki Komissiyası və Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə seçki kampaniyasının gedişini müzakirə ediblər. Prezidentliyə namizədlərin təşviqat qərargahının nümayəndələri ilə görüşlər keçirilib.

## ATƏT PA-nın 80-dən çox nümayəndəsi seçkiləri izləyəcək

**ATƏT-in Parlament Assambleyasından (PA) olan 80-dən çox müşahidəçi fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri üçün ölkəmizə gələcək. Secki-2024.az saytının xəbərinə görə, ATƏT PA-nın müşahidəçi nümayəndə heyətinin rəhbəri ATƏT PA-nın vitse-prezidenti Daniela De Ridder (Almaniya), ATƏT-in qısamüddətli müşahidə missiyasının xüsusi əlaqələndiricisi və rəhbəri isə İqtisadiyyat və Ətraf Mühit Komitəsinin sədr müavini Artur Gerasimov (Ukrayna) olacaq.**

"Biz prezident seçkilərinin demokratik prinsiplərə nə dərəcədə uyğun olduğunu, azad səsvermə prosedurlarının, ədalətli atmosferin, medianın əlçatanlığının və nəticələrin dəqiq işıqlandırılmasının təmin olunmasına nəzarət üçün ATƏT DTİHB missiyası ilə sıx əməkdaşlıq edirik", - deyə D.De Ridder bildirib.




Qeyd edək ki, 1995-ci ildən indiyədək ATƏT PA-nın Azərbaycanda onuncu seçki müşahidəsi olacaq.

## Ombudsman Aparatı Naxçıvanda ilk dəfə müşahidə aparacaq



**Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Aparatı Naxçıvan Muxtar Respublikasında ilk dəfə seçki prosesini müşahidə edəcək.**

Ombudsman Səbinə Əliyeva Naxçıvanda jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən, fevralın 7-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Sərəncam imzalanan ilk gündən etibarən Ombudsman aparatı və Mərkəzi Seçki Komissiyası Bakı şəhərində və Azərbaycanın müxtəlif regionlarında birgə çoxsaylı maarifləndirici tədbirlər həyata keçirib. Bu tədbirlərin sonuncusu Naxçıvan Muxtar Respublikasında təşkil olunub. Tədbirdə seçki komissiyasının üzvləri, müşahidəçilər, dairə və məntəqə sədrləri, üzvləri iştirak ediblər. Bu tədbirdə əsas mövzu vətəndaşların seçki hüquqlarının təmin olunması idi.

Ümumiyyətlə, 22 ildir fəaliyyət göstərən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Aparatı bütün seçkilərdə müşahidə aparıb. İlk dəfə olaraq bu müşahidə prosesi Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Aparatının iştirakı ilə Naxçıvanda da həyata keçiriləcək".

## "Sabunçuda seçicilərin yolunu gözləyirik"

**"Son illər ölkəmizdə keçirilən bütün seçkilər şəffaflığına və demokratikliyinə görə, beynəlxalq müşahidəçilər tərəfindən yüksək dəyərləndirilib. Prezident və parlament seçkilərində namizədlərin çoxluğu seçkilərdə öz namizədliyini irəli sürmək üçün hər kəsə şərait yaradıldığından xəbər verir. Seçki prosesində mövqeyindən asılı olmayaraq hər bir namizədə bərabər səviyyədə şərait yaradılıb. Mən seçki prosesində çalışdığım vaxtdan bunun canlı şahidi olmuşam. Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində də belə oldu. On yeddi nəfərin namizədliyi təsdiqlənmişdi. Lakin onlardan 10-u tələb olunan imzanı toplaya bilmədiyindən namizədliyini geri götürdü. Namizədliyi qeydə alınan 7 nəfərə isə təşviqat-təbliğat kampaniyasında bərabər səviyyədə şərait yaradılıb".**

Bu fikirləri 26 saylı Sabunçu Birinci Seçki Dairəsi DSK sədri Hüseynqulu Ələsgərov bildirdi.

O dedi ki, dairənin nəzdində olan bütün seçki məntəqələri, demək olar ki, seçkiyə hazırlıq işlərini uğurla başa vurub. Seçki məntəqələri seçicilərin yolunu gözləyir. Builki seçkilərdə dəqiqləşdirilmiş seçici siyahısına görə 52 min 977 nəfər seçicinin səs verməsi nəzərdə tutulub. Bundan ötrü 37 seçki məntəqəsində hazrlıq işləri tam başa çatb. Kabinələr hazır vəziyyətdədir. Seçki qutuları, gözlə görünməyən mürəkkəb, ultrabənövşəyi lampalar məntəqələrə vaxtında çatdırılıb. MSK tərəfindən hazırlanmış təlimatlar, metodiki vəsaitlər, yaddaş kitabçaları və əyani vəsaitlər komissiya üzvlərinin stolüstü kitabına çevrilib. Məntəqələr "Yeni nəsil" şəxsiyyət vəsiqələrinin oxunması üçün aparatla təmin olunub. Dəqiqləşdirilmiş seçici siyahısı məntəqələrdə əlverişli yerdən asılıb. Müşahidəçilərin seçki prosesini izləmələri üçün əlverişli şərait yaradılıb. Yeri gəlmişkən, indiyə qədər 457 müşahidəçi qeydiyyata alınıb.

DSK sədri aşağı seçki komissiya üzvlərinin bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi üçün tərəfindən treninqlərin və digər maarifləndirici tədbirlərin də keçirildiyini diqqətə çatdıraraq bildirdi ki, artıq treninqlər başa çatb. Komissiya üzvləri bəzi sahələri bir də nəzərdən keçirirlər. İndiyə qədər dairə seçki komissiyasına hər hansı bir şikayət və ya narazılıq daxil olmayıb. ATƏT-in beynəlxalq müşahidəçilərinin də dairəyə və seçki məntəqələrinə müşahidələrindən sonra da nöqsan aşkarlanmayıb.



H.Ələsgərov dedi ki, seçki komissiyalarının üzvləri artıq bildirişləri də ünvanlara çatdırıblar. Seçkilərin mütəşəkkil keçirilməsi üçün MSK tərəfindən hazırlanmış seçkiyə çağırış plakatları əhalinin gur olan yerlərində asılıb. Bundan əlavə, MSK tərəfindən hər bir seçicinin mobil telefonuna seçkiyə çağırış məqsədilə SMS göndərilib.

"Seçkidə şəffaflığın təmin olunması üçün 8 seçki məntəqəsinə veb-kameralar quraşdırılıb" – deyə DSK sədri sözünə davam edir. Hər bir kəs veb-kamera vasitəsilə məntəqələrdə seçki prosesini asanlıqla müşahidə edə bilər.

"Bütün bunlar seçkilərin azad, ədalətli və demokratik keçirilməsi üçün istifadə olunan vasitələrdir. Əminliklə bildirirəm ki, növbədənkənar prezident seçkiləri də əvvəlkilər kimi şəffaf və mütəşəkkil keçiriləcək. Azərbaycan demokratik seçki keçirməyə qadir olduğunu bir daha təsdiqləyəcək," – deyə DSK sədri bildirdi.

## ATƏT/DTİHB-nin müşahidəçiləri Füzuli rayonunda

**84 saylı Füzuli seçki dairəsində seçkiyə hazırlıq prosesi ilə tanış olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) müşahidəçiləri işğaldan azad edilmiş ərazilərdə yerləşən seçki məntəqələrindəki vəziyyətlə də maraqlanıblar.**

Office for Democratic Institutions and Human Rights
OSCE ODIHR



Bu barədə məlumat verən 84 saylı Füzuli dairə seçki komissiyasının sədri Ramiz Teymurov deyib ki, ATƏT/DTİHB-nin uzunmüddətli müşahidəçiləri olan Lars Nyholm və Evgeniy Loginov işğaldan azad edilmiş ərazilərdəki seçki məntəqələrində səsvermə prosesini izləmək istədiklərini deyiblər. Bu baxımdan, həmin ərazilərdə təhlükəsizliyin necə təmin edildiyi ilə maraqlanıblar.

DSK sədri bildirib ki, onun rəhbərlik etdiyi dairədə mövcud olan 77 məntəqənin üçü 44 günlük müharibədə azad edilmiş ərazilərdə yerləşir. Dairə üzrə, ümumilikdə, 54 min 457 seçici qeydiyyatdadır. 1257 seçici ilk dəfə səsvermə hüququndan istifadə edəcək. Yeddi seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Dairə üzrə 1015 müşahidəçi qeydiyyatdan keçib. O, seçkilərə hazırlıq prosesinin qanunvericiliyin tələblərinə uyğun aparıldığını diqqətə çatdırıb.

## 590 min nəfər ilk dəfə seçim edəcək

**Fevralın 7-də keçiriləcək prezident seçkilərində, ümumilikdə, 590 min nəfər ilk dəfə səs verəcək**

Prezident seçkiləri ilə əlaqədar seçicilərin çoxluğu nəzərə alınaraq 832 yeni seçki məntəqəsi yaradılıb. Həmin məntəqələrin də 26-sı işğaldan azad olunmuş ərazilərdədir. Bununla yanaşı, 119 dairə üzrə 1 000 seçki məntəqəsində kamera quraşdırılıb".



Növbədənkənar prezident seçkilərində 89 ölkədən 63 beynəlxalq təşkilatın 800-ə yaxın beynəlxalq müşahidəçisi iştirak edəcək.

MSK seçki prosesləri ilə bağlı silsilə maarifləndirici tədbirlər təşkil edir. Xüsusilə də seçicilər üçün "ASAN növbə" terminallarında "Seçici statusunu yoxla" adlı funksional bölmənin əlavə edildiyini diqqətə çatdıran H.Paşayev bildirib ki, bölmə vasitəsilə vətəndaşlar adlarını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər.

Növbədənkənar prezident seçkilərini təxminən 62 beynəlxalq media qurumunun 120 xarici jurnalisti müşahidə edəcək.

## Rusiyalı deputatlar da seçki məntəqələrində olacaqlar

**Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin sədri Qriqori Karasinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə edəcək.**



Parlamentarilər MDB, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və MDB Parlamentlərarası Assambleyasının müşahidə missiyalarının xətti ilə Azərbaycana yola düşəcəklər.

Müşahidəçilər sırasına Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsi sədrinin birinci müavini İlyas Umaxanov, Federasiya Şurasının Federal struktur, regional siyasət, yerli özünüdarəetmə və şimal məsələləri üzrə komitə sədrinin müavini Anatoli Şirokov və Federasiya Şurasının Konstitusiya qanunvericiliyi və dövlət quruculuğu komitəsinin üzvü Aleksandr Başkin daxildir.

## "Oracle Advisory Group"un seçkiqabağı sorğusu

**"Biz artıq 3 min seçici arasında sorğu aparmışıq". Bu fikri ABŞ-nin "Oracle Advisory Group" təşkilatının nümayəndəsi Vlada Qalan səsləndirib.**

O deyib ki, sorğunun 75,3 faizi böyük şəhərlərin ərazisində keçirilib: "Sorğunun 23,4 faizi isə şəhər tipli qəsəbələrdə, 1,3 faizi isə kəndlərdə götürülüb. Gender məsələsinə gəldikdə, 49,3 faizi qadın, 50,7 faizi isə kişilər olub. Sorğuda iştirak edənlərin 50 faizi Bakıda, 13,4 faizi Abşeron-Xızı, 3,3 faizi Gəncə-Daşkəsən, 3,3 Naxçıvanda, 3,3. Şirvan-Salyan, 3,3. Şəki-Zaqatala, 3,3. Mərkəzi Aran, 3,3. Lənkəran-Astara, 3,6. Quba- Xaçmaz, 3,3. Dağlıq Şirvan, eyni zamanda 3,3 faizi Qarabağ bölgəsini əhatə edib".

oracle
ADVISORY GROUP

*Səhifəni hazırladı: Əliqismət BƏDƏLOV*
*XQ*

# Azərbaycan regionda “yaşıl enerji” lideridir

## Son illər bu sahəyə yönəldilən sərmayələrin həcmi 1 milyard dollardan çoxdur

**İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkəsindəki hesabında Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) arasında COP29 tədbirinə hazırlıq məsələlərinin müzakirə edildiyini bildirib. Nazir, eyni zamanda, adıçəkilən beynəlxalq maliyyə qurumunun nümayəndələri ilə respublikamızda keçiriləcək COP29 konfransının yüksək səviyyədə reallaşması üçün görülən işlərin nəzərdən keçirildiyini, enerji səmərəliliyinin təmin edilməsi üçün resursların effektiv tənzimlənməsi istiqamətində müzakirələr aparıldığını da vurğulayıb.**

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı 29-cu sessiyasının– COP29-un bu il ölkəmizdə keçiriləcəyi ilə bağlı qərar ötən il dekabrın 11–də COP28-in 150-dən çox dövlət və hökumət başçılarının iştirakı ilə Dubayda reallaşan plenar iclasında qəbul olunub. Qeyd edək ki, bu, təsadüfi olmayıb. Çünki indiyədək COP-un konfransları qazıntı yanacağı ixracatçıları olan, lakin “yaşıl enerji”yə də fəal şəkildə sərmayə qoyan ölkələrdə keçirilib. Azərbaycanın da fəaliyyəti bu baxımdan yüksək dəyərləndirilib. Başqa sözlə, dünya ölkələrinin COP29-un Bakıda reallaşdırılacağı barədə yekdil qərarı respublikamızın iqlim dəyişikliklərinin qarşısının alınması sahəsində həyata keçirdiyi layihələrə verilən yüksək qiymətlə bağlı olub.

Beləliklə, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi bir daha təsdiq edir ki, ölkəmizin bu sahədəki fəaliyyəti BMT daxil olmaqla, beynəlxalq və qlobal təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Məhz bu səbəbdən də Azərbaycanın namizədliyi dəstək olunub və təsdiqlənib. Qeyd edək ki, Azərbaycan regionda “yaşıl enerji”nin inkişafına ən çox investisiya edən ölkələrdən biridir. Son illər bu sahəyə yönəlmiş sərmayələrin həcmi 1 milyard dollardan artıqdır.

Bu məqamda onu bildirək ki, Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərindən biri dekarbonizasiya tədbirlərinin tətbiqi ilə “yaşıl” inkişafı və neft-qaz layihələrinin icrasını özündə birləşdirən enerji keçidinin təmin edilməsinə balanslaşdırılmış yanaşmadır. Ekspertlərin sözlərinə görə, külək və günəş enerjisi sahəsində yeni irimiqyaslı layihələrin həyata keçirilməsi yüksək texnologiyalı enerji saxlama sistemlərinin tətbiq edilməsi ilə müşayiət olunur. Ümumilikdə, ölkədə 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sahəsində 7 GVt istehsal gücünün yaradılması planlaşdırılır ki, bu da Azərbaycana Avropaya “yaşıl enerji”nin aparıcı ixracatçılarından biri olmaq imkanı vermək deməkdir.

Bu məqsədə nail olmaq üçün hazırda müvafiq ixracat infrastrukturu – “Black Sea Energy” Qara Dəniz sualtı kabelinin yaradılması üzrə işlər aparılır. Bu xətt vasitəsilə Azərbaycanın ən böyük külək və günəş elektrik stansiyalarının Gürcüstan üzərindən Avropa ölkələrinin enerji sistemi ilə birləşdiriləcəyi planlaşdırılır. Eyni zamanda, respublikamızda gerçəkləşdirilən neft-qaz layihələrinin uğurlu icrası nəticəsində karbontutma, onun istifadəsi, həmçinin saxlanması, habelə hidrogen və ammonyak istehsalı üzrə təşəbbüslərin reallaşdırılması nəzərdə tutulur.

Yeri gəlmişkən, Prezident İlham Əliyev enerji siyasətinin əsas prioritetləri qismində bərpaolunan enerjinin istehsalı və nəqlini xüsusi vurğulayaraq 2024-cü ili Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edib. Bu zaman şübhəsiz ki, dövlət başçısının “yaşıl enerji” zonası konsepsiyasına uyğun olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı barədə qərarı da diqqət çəkib.




Qeyd edək ki, Azərbaycan “yaşıl enerji” iqtisadiyyatına verdiyi önəmi qısa müddət ərzində əməli fəaliyyəti ilə təsdiqləyib. Məsələn, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Respublikamız bərpaolunan enerji mənbələri üzrə zəngin potensiala malik olan ölkələrdəndir. Energetika Nazirliyinin məlumatına əsasən, Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı, təqribən, 520 meqavat həcmindədir.

Ölkəmizdə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli isə Prezident İlham Əliyevin 2021-ci il fevralın 2-də imzaladığı sərəncamla təsdiqlənən “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri” ilə qoyulub. Sənəddə diqqətə çatdırılan 5 milli prioritetdən biri “təmiz ətraf mühit” və “yaşıl artım”la bağlı olub. Bununla da respublikada “yaşıl iqtisadiyyat”a keçid mərhələsi başlanılıb. Bu prioritetlər qəbul edilənə qədər isə Azərbaycanın Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin reallaşdırılmasını şərtləndirən müqavilə (9 yanvar 2020-ci il) əsasında 2022-ci il yanvarın 13-də “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. Həmin il martın 15-də isə Bakıda “Qaradağ” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində “Masdar” şirkəti ilə 4 anlaşma memorandumu imzalanıb.

“Masdar” şirkəti hazırda ölkəmizdə 230 MVt gücündə “Qaradağ” Günəş Elektrik Stansiyası (GES) layihəsini reallaşdırır. Stansiyanın hər il yarım milyard kilovat/saat elektrik enerjisi istehsal etməyə və atmosferə atılan tullantıların ildə 200 min tondan çox azaldılmasına imkan yaradacağı nəzərdə tutulur.

Yeri gəlmişkən, artıq ötən il “Qaradağ” GES-də ilk günəş paneli quraşdırılıb. 2023-cü ildə karbon emissiyasının azaldılması məqsədilə SOCAR ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı (JBIC) arasında “Dekarbonizasiya sahəsində əməkdaşlığın təşviqinə dair Anlaşma Memorandumu” da imzalanıb.

Bütün bunlarla bərabər, 2022-ci il dekabrın 15-də Azərbaycanın Energetika Nazirliyi və Avstraliyanın “Fortescue Future Industries” (FFI) şirkəti arasında ölkəmizdə bərpaolunan enerji layihələri, həmçinin “yaşıl hidrogen”in potensialının öyrənilməsi və inkişafı üzrə birgə əməkdaşlığa dair Çərçivə Müqaviləsi imzalanıb. Müqavilədə Azərbaycanda bərpaolunan enerji və “yaşıl hidrogen”in istehsalı üzrə ümumi gücü 12 qiqavatadək layihələrin araşdırılması və reallaşdırılması nəzərdə tutulub.

Beləliklə, Azərbaycan 3 əsas enerji şirkəti ilə imzaladığı anlaşma memorandumu və müvafiq müqavilələrə əsasən, həm quruda, həm də dənizdə 25 qiqavat bərpaolunan günəş və külək enerjisi istehsal edəcək. Bu həcmin, təqribən, 12 qiqavatı FFI, 10 qiqavatı “Masdar”, bir hissəsi isə “ACWA Power” şirkətləri tərəfindən istehsal olunacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

**Xarici və yerli istehsalçıların, eləcə də investorların muxtar respublikaya səfəri çərçivəsində keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov qədim diyarın ötən ilin yekunlarına dair iqtisadi inkişaf göstəricilərini açıqlayıb. Vurğulanıb ki, 2023-cü ildə muxtar respublikada 1 milyard 552 milyon manat dəyərində ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Ötən il bölgədə 594 milyon manatlıq sənaye, 358 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib, əhaliyə 34 milyon manatlıq informasiya və rabitə, 178 milyon manatlıq ödənişli xidmətlər göstərilib.**

# Naxçıvanda istehsalçı və investorlarla görüş



Qəzetimizin muxtar respublika üzrə bölgə müxbiri Səbuhi Həsənovun bildirdiyinə görə, tədbirdə qeyd edilib ki, Naxçıvan iqtisadiyyatında şəffaflaşmanın artması, “kölgə iqtisadiyyatı”nın miqyasının azaldılması, biznes fəaliyyətinin leqallaşdırılması vergi daxilolmalarının dinamik artımı ilə nəticələnib. Belə ki, 2023-cü ildə büdcə gəlirlərində qeyri-dövlət sektorunun payı 55,7 faiz, vergi daxilolmalarında isə 62,4 faiz təşkil edib.

Sahibkarlığın sürətli inkişafında ən önəmli amillərdən biri maliyyə əlçatanlığıdır. 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 40 investisiya layihəsinin maliyyələşdirilməsinə 6,2 milyon manat güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilib ki, bunun 84,8 faizi sənaye məhsullarının istehsalına, 11,7 faizi kənd təsərrüfatına və 3,5 faizi isə xidmət sahələrinə yönəldilib.

Naxçıvan Muxtar Respublikası Kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova, Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Rahid Ələkbərli, “Azərbaycan Françayzinq Assosiasiyası”nın idarə heyətinin sədri Camid Mövsümov, “İhlas Holdinq”in direktor müavini Cemil Ceyhan Aral və “Özgün İnşaat”ın direktor müavini Mehmet Can Seyman çıxışlarında “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” barədə məlumat verərək, bu sənədin əsas qayələrindən birinin sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırmaq, azad iqtisadi zona yaratmaqla qədim diyarı əsas sərmayə mərkəzinə çevirmək olduğunu vurğulayıblar.

Tədbirdə şirkətlərin gördükləri işlərə aid videoçarxlar nümayiş etdirilib, investisiyalarla bağlı məlumatlandırma olub.

***XQ***

# Türkdilli ölkələrin vahid gömrük portalı yaradılacaq

***Dövlət Gömrük Komitəsinin (DGK) Gömrük inzibatçılığı baş idarəsinin Gömrük tənzimlənməsi idarəsinin rəisi Cəfər Quluzadənin sözlərinə görə, Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin (TRACECA) iştirakçısı olan türkdilli ölkələrin gömrük xidmətləri elektron xidmətlərin vahid tranzit portalının yaradılması ilə bağlı çərçivə sazişi hazırlayır.***



C.Quluzadə bildirib ki, Azərbaycanda sözügedən istiqamətdə vahid tranzit portalın yaradılması ilə bağlı indiyədək lazımi dövlətdaxili tədbirlər həyata keçirilib. Hazırda beynəlxalq tranzit dəhlizi boyu yerləşən türkdilli ölkələrin də bu yöndə fəaliyyətlərinin yekunlaşdırılması nəzərdə tutulub.

***XQ***

# Cənub Qaz Dəhlizi öz imkanları ilə fəaliyyət göstərəcək

**“Fitch Ratings” beynəlxalq reytinq agentliyi “Cənub Qaz Dəhlizi” (SGC) Qapalı Səhmdar Cəmiyyətinin yüksək səviyyəli təminatsız avrobondlarının xarici valyutada uzunmüddətli reytinqini “BB+” səviyyəsində təsdiqləyib.**

Bu barədə beynəlxalq reytinq agentliyi açıqlama yayıb. Bildirilib ki, bu, “Fitch”in müddəti 2026-cı ildə başa çatan, Azərbaycan ("BB+"/Pozitiv) tərəfindən tam təminat verilən 2 milyard ABŞ dolları həcmində avrobondlara dair dəyişməz mövqeyini əks etdirir. Yeri gəlmişkən, reytinq dövlət tərəfindən Cənub Qaz Dəhlizi sahiblərinə tam və vaxtında ödəmə ilə bağlı qeyd-şərtsiz, geri alınmaz təminatını əhatə edir. Nəticədə, “Fitch” avrobondların reytinqini Azərbaycanın uzunmüddətli xarici valyuta İDR ilə bərabər olduğunu hesab edir.

Bu arada, “Cənub Qaz Dəhlizi” Qapalı Səhmdar Cəmiyyətinin builki ehtiyaclarının maliyyələşdirmə mənbələri müəyyənləşib. Belə ki, 2024-cü ildə SGC ümumi nağd pula olan ehtiyaclarını “Şahdəniz”, “Cənubi Qafqaz Boru Kəməri”, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrindən əldə olunan vəsaitlər və yığılmış pul vəsaitləri hesabına təmin edəcəyi proqnozlaşdırır.

“Fitch Ratings” beynəlxalq reytinq agentliyinin məsələ ilə bağlı yaydığı məlumata görə, buna səbəb Cənub Qaz Dəhlizi ilə bağlı bütün layihələrin artıq istismara verilməsidir. “2023-cü ilin sonuna SGC-nin maliyyələşməsi dövlət tərəfindən təmin edilən borc (6,4 milyard ABŞ dolları) və kapital (2,4 milyard ABŞ dolları) kombinasiyasından ibarət olub. SGC 2020-2023-cü illərdə yeni borc götürməyib, ancaq ötən ilin sonuna onun ümumi borc ehtiyatının təxminən 72 faizi Dövlət Neft Fondunun buraxdığı istiqrazlar və avrobondlar, 28 faizi isə beynəlxalq maliyyə institutlarının kreditləri və onlar tərəfindən dəstəklənən kreditlər təşkil edib”, – deyə agentlik bəyan edib.

Xatırladaq ki, “Cənub Qaz Dəhlizi” Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Şahdəniz” qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında” 2014-cü il 25 fevral tarixli sərəncamı ilə “Şahdəniz” qaz-kondensat yatağının tammiqyaslı istismarı, Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsi, TANAP və TAP layihələrində dövlətin iştirak paylarının birləşdirilməsi, idarə edilməsi və maliyyələşdirilməsi məqsədilə yaradılıb. Cəmiyyətin səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49 faizi isə Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) məxsusdur. Qurumun nizamnamə kapitalı 2 milyard 415,8 milyon ABŞ dolları təşkil edir.

Yeri gəlmişkən, Avropanın enerji xəritəsini zənginləşdirən Cənub Qaz Dəhlizi layihəsi uzun illər aparılan səmərəli danışıqların, bu sahədə imzalanan sənədlərin nəticəsi olaraq ərsəyə gəlib. Məlum olduğu kimi, 2011-ci ildə Avropa Komissiyası və Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzalayıblar. Sözügedən sənəd TANAP və TAP-la bağlı hökumətlərarası sazişlərlə birlikdə uzunmüddətli qaz satış müqavilələri üçün zəmin yaradıb. Bir il sonra Azərbaycan və Türkiyənin dövlət başçıları Trans-Anadolu Qaz Boru Kəməri ilə bağlı müqaviləyə imza atıblar. 2013-cü ildə isə Trans-Adritik Qaz Boru kəməri layihəsi həyata vəsiqə alıb. Beləliklə, Cənub Qaz Dəhlizinin bütün seqmentlərinin reallaşdırılması üçün hüquqi baza formalaşdırıldıqdan sonra konkret işlərə start verilib.




SGC-nin ilk seqmenti olan “Şahdəniz-2” layihəsi Azərbaycan qazını Avropa və Türkiyəyə çatdıran nəhəng enerji layihəsidir. Sözügedən layihə “Şahdəniz” yatağının birinci işlənmə mərhələsi çərçivəsində hasil olunan illik 10 milyard kubmetrdən əlavə daha 16 milyard kubmetr qaz hasilatını nəzərdə tutur. 2006-cı ilin sonlarında istismara verilmiş “Şahdəniz” yatağının ilkin balans ehtiyatı 1 trilyon kubmetrdən artıq təbii qaz və 2 milyard bareldən çox kondensat həcmində qiymətləndirilib.

Uzunluğu 3 min 500 kilometr olan Cənub Qaz Dəhlizinin təməli 2014-cü il sentyabrın 20-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub. Cənub Qaz Dəhlizinin yaradılması, ilk növbədə, 2006-cı ilin sonlarında istifadəyə verilmiş Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi zərurətini yaradıb. Bu məqsədlə marşrutun Azərbaycan ərazisindən keçən hissəsində yeni boru kəməri inşa olunub. Bununla da, illik ötürmə qabiliyyəti 7,4 milyard kubmetr təşkil edən Cənubi Qafqaz Boru Kəmərinin gücü 24 milyard kubmetrə çatdırılıb. Gələcəkdə isə lazım gəldiyi təqdirdə kəmərin illik ötürmə qabiliyyəti 34 milyard kubmetrə çatdırıla bilər.

“Şahdəniz” qazını Türkiyənin dərinliklərinə nəqlini həyata keçirən TANAP-ın təməlqoyma mərasimi 2015-ci il martın 17-də Türkiyənin Qars şəhərində keçirilib. Bununla da, boru kəmərinin inşasına start verilib. 12 iyun 2018-ci il tarixində Əskişəhərdə Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan Trans-Anadolu Boru Kəmərinin açılışı olub. Həmin ayın 30-da ilk kommersiya qazının bu kəmərlə Türkiyəyə nəqlinə başlanılıb. Noyabrın 30-da isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Uzunluğu 1850 kilometr olan TANAP-ın illik ötürmə gücü hazırda 16,2 milyard kubmetr təşkil edir. Azərbaycanın zəngin qaz ehtiyatları, eləcə də Avropada “mavi yanacağa” tələbatın artması ilə əlaqədar gələcəkdə sözügedən kəmərin illik ötürmə qabiliyyətinin 30,7 milyard kubmetrədək artırılması gözlənilir.

Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik Boru Kəməri Xəzər regionunun qazını Avropaya nəql etmək məqsədilə inşa edilib. Adı çəkilən kəmərin təməlqoyma mərasimi 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində keçirilib və tikinti işlərinə başlanılıb. TAP kəməri 2020-ci il noyabrın 15-də istismara verilib və kommersiya fəaliyyətinə başlamağa hazır vəziyyətə gətirilib. Həmin il dekabrın 31-də isə Azərbaycan kommersiya qazının TAP vasitəsilə Avropaya tədarükünə başlanılıb. Bununla da, ölkəmiz “köhnə qitə”nin əsas qaz tədarükçülərindən birinə çevrilib. Qeyd edək ki, uzunluğu 880,8 kilometr olan kəmərlə il ərzində 10 milyard kubmetrdən artıq qaz nəql olunur. Lakin yaxın illərdə Avropaya qaz tədarükünün artması ilə əlaqədar olaraq bu həcmin 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

Unudulmaz sənətkarlar

# Milli baletin əfsanəsi

**Xalq artisti olan böyük balerina, pedaqoq, professor Leyla Vəkilovanın xatirəsi daim onu sevənlərin ürəyində yaşayır. Nə qədər ki, Azərbaycan mədəniyyəti və incəsənəti var, neçə ki, onun ifalarını canlı olaraq görənlər yaşayır, Leyla xanım unudulmayacaq.**



O, səhnəyə çıxanda sanki döşəmə pəmbə buluda dönürdü və Leyla ayağının ucunda gəzə-gəzə o buludu əzmək istəməyən, qanad çala-çala yerə-göyə "naz satan" qu quşuna çevrilirdi. İlahi, hardandı onda bu qədər plastika, ahəngdarlıq, romantik vüsət?! Onun seyri adama sehirli yuxu kimi gəlirdi, Cənnətin ecazkar guşəsinə 1 saatlıq güzardı sanki. Yerə enmiş mələk öz rəqsləri ilə qəribə bir ovsun yaradırdı – hayıl-mayıl olmamaq mümkün deyildi. O gedəndən sonra yaranan təəssürat isə mələk qanadından qopmuş ağ lələk kimi xəyallarda yellənirdi...

Xatırlayırıq ki, 2018-ci ildə YARAT Müasir İncəsənət Mərkəzində "Qanadlı xatirələr. Leyla Vəkilova" adlı ilk sənədli film hazırlanıb göstərilmişdi. Dörd dildə – Azərbaycan, rus, ingilis və ispan dillərində səsləndirilən həmin film seyrçiləri yetərincə heyrətləndirmişdi. İndi isə Nizami Kino Mərkəzində "Vəkilova" filmi təqdim olundu. Hər iki adda "Vəkilova" soyadının olması, bəlkə də, onun Azərbaycan baletinin əsl vəkili olmasına işarədir.

Sənətinin Leylası 8 yaşında balet məktəbinə gedib, Ədilə və Qəmər Almaszadələrdən peşənin incəliklərini öyrənib. Moskva Xoreoqrafiya Məktəbini də bitirib və sonra Bakıya qayıdaraq Opera və Balet Teatrında çalışıb. Adının keçmiş SSRİ-nin ən məşhur balerinaları sayılan Marina Semyonova, Qalina Ulanova, Mayya Plisetskaya, Natalya Dudinskaya və Olqa Lepesinskaya ilə bir siyahıda, yanaşı çəkilməsinə nail olub. Balet ustası 1953-cü ildən ömrünün sonuna kimi Bakı Xoreoqrafiya Məktəbində klassik rəqslər fənnindən dərs deyib və 1992-ci ildən həm də bu təhsil ocağına bədii rəhbərlik edib. O, həmçinin 1976–1982-ci illərdə Azərbaycan Dövlət Rəqs Ansamblının rəhbəri olub.

Sayca 2-ci filmin təqdimatında Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) məsul əməkdaşları, kino xadimləri, digər qonaqlar iştirak edirdilər.

ARKA-nın baş direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu rəqs sənətimizin görkəmli nümayəndəsi haqqında filmin əhəmiyyətindən danışdı. O digər sənət fədailəri haqqında da filmlərin lentə alınacağını diqqətə çatdırdı.

Filmin ssenari müəllifi və rejissoru, Əməkdar artist Samir Səmədov, ekran əsərinin prodüseri isə Gülnarə Lütfəliqızıdır. İki ay ərzində ərsəyə gələn ekran işi Azərbaycan dilindən savayı, ingilis və rus dillərində də səsləndirilib. Filmdə Leyla Vəkilovaya aid arxiv materiallarından istifadə olunub.

Qeyd edək ki, Leyla Vəkilova müxtəlif illərdə A.Adamın "Jizel", R.Qlierin "Qırmızı lalə", P.Çaykovskinin "Sonalar gölü", "Yatmış gözəl", "Şelkunçik", L.Minkusun "Don Kixot", A.Kreynin "Laurensiya", B.Zeydmanın "Qızıl açar", B.Asafyevin "Bağçasaray fontanı", Ə.Bədəlbəylinin "Qız qalası", Q.Qarayevin "Yeddi gözəl",



"İldırımlı yollarla", S.Hacıbəyovun "Gülşən" və digər baletlərdə yaddaqalan obrazlar yaradıb.

Filmin nümayişi bir daha gözlər önündə Leyla Vəkilovanın heyrətamiz sənəti haqqında təsəvvürləri canlandırdı, ona rəhmət oxutdurdu.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Gənc yazarlar təltif olundular

**Xəbər verdiyimiz kimi, Azərbaycan Ədəbiyyat Fondu ilə "Ulduz" jurnalı "Ədəbiyyat və İncəsənət" portalının media dəstəyi ilə yaşı 35-dək gənc yazarlar arasında Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr edilmiş hekayə müsabiqəsi keçirib.**



Hələ yeniyetmə çağlarında "Bayram həsrətində", "Asqılıqda işləyən qadının söhbəti" və "Sabah ayıq olacayıq" hekayələri ilə ədəbiyyata gələn Anarın adına müsabiqənin təşkili gənc yazarların yaradıcılığının püxtələşməsinə dəstək məramı daşıyırdı. Müsabiqədə münsiflər tərəfindən əvvəlcə 200-ə yaxın iştirakçı arasından 8 finalçı müəyyənləşdirilmişdi. Sonra finalçılar arasından qalib və mükafatçıların adları açıqlanıb. Belə ki, Cavid Babayev "Üçnəfərlik motosikletlər" hekayəsinə görə 1-ci yerə layiq görülüb. Gənc yazarlar Orxan Cuvarlı 2-ci, Xan Abdulla 3-cü yerlərdə qərar tutublar. Bəşir Niftəliyev və Səma Quliyeva isə həvəsləndirici nominasiyada yer alıblar.

Himayədarı "Azeristeel" MMC Metal Konstruksiylar Zavodu, informasiya və təşkilati dəstəkçiləri "Ədəbiyyat və incəsənət" portalı ilə "Şirvan" cəmiyyəti olan müsabiqənin mükafatlandırma mərasimi 2 fevral Azərbaycan Gəncləri Günündə AYB-nin Natəvan klubunda təşkil olunub. Tədbiri Ədəbiyyat Fondunun direktoru, yazıçı Varis açaraq, Xalq yazıçısı Anarın yubileyinə həsr olunan müsabiqə barədə məlumat verib. Görkəmli qələm sahibi, AYB-nin sədri Anar yaradıcılığına olan ehtirama görə minnətdarlığını bildirib, müsabiqənin iştirakçılarına və qaliblərinə yeni uğurlar arzulayıb.

Əsasən gənc yazarların ədəbi tribunası olan "Ulduz" jurnalının baş redaktoru, şair Qulu Ağsəs Xalq yazıçısı Anara və onun adına təşkil edilmiş müsabiqənin qaliblərinə ən xoş arzularını çatdırıb. Obyektiv şəkildə, sırf ədalət prinsipi üzrə keçirilən bu hekayə yarışmasından sonra gənclər üçün Xalq şairi Vaqif Səmədoğlunun 85 illik yubileyi münasibətilə şeir müsabiqəsinin də elan olunduğu diqqətə çatdırılıb.

Müsabiqənin final mərhələsində münsiflər heyətinin rəhbəri olmuş tanınmış yazıçı Hüseynbala Mirələmov, AYB-nin sədr müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid, yazıçı Təranə Vahid və başqaları müsabiqənin önəmindən bəhs edib, gənclərin yaradıcı potensialının açılmasında bu kimi tədbirlərin böyük rol oynadığını vurğulayıblar.

Sonda qaliblər mükafatlandırılıblar. Onlara pul mükafatları, fəxri diplomlar və Xalq yazıçısı Anarın imzası ilə kitablar təqdim edilib.

***Ə.ƏİYEV***
***XQ***

# Özbəkistan mətbuatında Azərbaycan müsabiqəsi keçirilir

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) 2024-cü il üzrə Özbəkistan mətbuatı və ictimaiyyəti arasında Azərbaycana, habelə Özbəkistanla tarixi dostluq əlaqələrinə dair müsabiqə elan edib.**

Nominasiyalar arasında "İlin televiziya verilişi", "İlin tərcümə əsəri", "İlin sənədli filmi", "Dostluq əlaqələrini təbliğ edən ilin ən fəal azərbaycanlı və özbək ədibi", özbək mətbuatında dostluğumuz, Azərbaycan haqqında ən çox materiallar dərc edən mətbu orqan (qəzet, jurnal, sayt, televiziya kanalı, radio), habelə Özbəkistanda Azərbaycan dilinin tədrisi və təbliği, Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatına aid ilin layihəsi və başqa mövzular var.

Müxtəlif nominasiyalarda qaliblər Mədəniyyət Mərkəzinin fəxri diplom və pul mükafatlarına layiq görüləcəklər.

2024-cü ilin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Yaşıl dünya naminə həmrəylik" ili elan edilməsi ilə əlaqədar AMM tərəfindən Özbəkistanda silsilə tədbirlərin və layihələrin həyata keçirilməsi plandaşdırılır.

Bununla əlaqədar mərkəz müsabiqədə mətbuat üzrə COP-29 Beynəlxalq ekoloji təşkilatda Azərbaycanın rolu, ətraf mühitin mühafizəsi, tullantısız mühit və texnologiyalar, yaşıllıqların qorunması və artırılması, iqlim dəyişiklikləri mövzularını təşviq edən məqalələrə üstünlük verəcək və müsabiqəyə bu mövzular üzrə nominasiyalar da daxil edib.




Bildiyimiz kimi, İSESKO tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub. Bununla əlaqədar "Şuşa – İslam dünyasının Mədəniyyət paytaxtı" adlı nominasiya müsabiqədə yer alıb. Bu nominasiya üzrə Azərbaycanın qədim şəhəri, Qarabağın mərkəzi, mədəniyyət paytaxtımız Şuşa şəhəri, onun tarixi, mədəniyyəti, Prezident İlham Əliyevin uğurlu siyasəti, rəşadətli Azərbaycan ordusunun Şuşanı azad etməsi, Şuşa şəhərinin qısa müddət ərzində yenidən qurulması, eyni zamanda, tarixi-mədəni və dini abidələrin bərpa edilərək istifadəyə verilməsi istiqamətində aparılan intensiv işlər, Şuşanın beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsi və s. barədə məqalələr əsas götürüləcək.

Eyni zamanda Özbəkistanda 2024-cü ilin Prezident Şavkat Mirziyoyev tərəfindən "Gənclərə və biznesə dəstək ili" elan edilməsi ilə əlaqədar builki müsabiqədə xüsusi nominasiya yer alıb. Nominasiyada gənclərin milli dəyərlərə əsaslanaraq intellektual inkişafı, onların elm və texnologiyalara yiyələnməsi, güclü iqtisadiyyatın qurulması, biznesin, innovasiyaların dəstəklənməsi mövzularına önəm veriləcək.

Qeyd edək ki, müsabiqədə qalib gələn özbək jurnalistlər ənənəvi olaraq hər ilin yay aylarında Azərbaycana təşkil olunan Mediaturda iştirak etmək imkanı əldə edəcəklər.

Media nümayəndələri ölkəmizin paytaxtı Bakıya və respublikamızın tarixi məkanlarına, işğaldan azad edilmiş bölgələrə səfər edəcək, mədəniyyət, turizm məkanlarında olacaq, çəkilişlər aparacaq, məqalələr hazırlayacaqlar.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**Daşkənd**

# Kinorejissor Rasim Ocaqov Vyanada yad edildi



**Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, kinorejissor, SSRİ və respublika dövlət mükafatları laureatı, Xalq artisti Rasim Ocaqovun anadan olmasının 90 illik yubileyi münasibətilə Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində xatirə axşamı təşkil edilib.**

Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova tədbirdə çıxış edərək görkəmli rejissorun həyat və yaradıcılığına nəzər salıb, onun Azərbaycan kino tarixində mühüm rolundan söz açıb.

Rasim Ocaqovun ailə üzvləri adından çıxış edən nəvəsi Nərminə Həsənova yubiley tədbirinin Azərbaycanın müxtəlif şəhərlərində, eləcə də Türkiyədən sonra Avropa mədəniyyətinin beşiyi sayılan Vyanada təşkil olunmasını yüksək qiymətləndirib, Azərbaycan kino salnaməsində unudulmaz izlər buraxmış Rasim Ocaqovla bağlı xatirələrini tamaşaçılarla bölüşüb.

Tədbirdə "Baku TV" tərəfindən çəkilən, Rasim Ocaqovun həyat və yaradıcılığından bəhs edən sənədli film ixtisarla nümayiş olunub.

Azərbaycan Dövlət Film Fondunun direktoru, rejissor və kinoşünas Cəmil Quliyev tədbir iştirakçılarına videomüraciətində Rasim Ocaqovun milli kino mədəniyyəti tarixində silinməz iz buraxdığını, onun yaradıcılıq dövrünün kino tariximizdə ayrıca mərhələ kimi səciyyələndiyini bildirib.

***XQ***

Azərbaycanı dünyaya tanıdanlar

# "Twitter"dən milyonlar qazanan soydaşımız

**Dünyanın 1 nömrəli texnologiya-təhsil mərkəzi – Masaçusets Texnologiya İnsitutunun məzunu Tural Bədirxanlı Amerikada yaşayır. Həmyerlimizin 2 həmkarı ilə birgə yaratdığı interaktiv reklam proqramı "Twitter" onlayn sosial şəbəkəsinə 50 milyon dollara satılıb.**

Nyu-York şəhərinin sakini olan Tural Bədirxanlı 1986-cı ildə Quba şəhərində müəllim ailəsində doğulub. İlk təhsilini Zaur Cəfərov adına 3 nömrəli tam orta məktəbdə alıb, Quba Özəl Türk Liseyini bitirdikdən sonra xaricdə təhsil almaq istəyi onu Türkiyənin Boğaziçi Universitetinə gətirir, bu təhsil ocağının fizika fakültəsinin tələbəsi olur. Orada 1 il oxuduqdan sonra Amerikada təhsilin üstünlüklərini öyrənərək, oraya yönəlir. Harvard, MTT, Prinston, Yale kimi məşhur universitetlərin verdiyi bu imkanlardan faydalanmağa çalışan Tural sənədlərini Masaçusets Texnologiya İnstitutuna göndərir və bu ali təhsil ocağının tələbəsi adını qazanaraq okeanın o tayına yollanır. Magistratura pilləsi üzrə də burada təhsil alır və 2 ilə yaxın "Google" şirkətində çalışır.





Sonra "Google"dan ayrılan Tural Silikon Vadisinin imkanlarından bəhrələnmək niyyətinə düşür. Külli mentor resurslarına, yaxşı ideyalara sahib çıxan iri şirkətlərin toplandığı, böyük investisiya kapitalının rəqabətdə olduğu məkan kimi şöhrətlənmiş "Silikon Vadisi" onun həyatında yeni mərhələ olur.

Tural almaniyalı və amerikalı 2 həmkarı ilə həmtəsisçisi olduğu "Namo Media" interaktiv reklam proqramını yaradanda onların hədəfi bütün şəbəkələrdə bu proqram vasitəsilə reklamların fərqli formatda təqdim edilməsinə nail olmaq idi. Bu proqram "iPhone", "Android" telefonlarına yazılan applikasiya sahiblərinə reklamdan çox böyük gəlir əldə etmək imkanı yaradırdı. O vaxta kimi bu formatda reklamlardan yalnız "Facebook" və "Twitter" kimi iri şirkətlər bəhrələnə bilirdi. Nəhayət, ciddi axtarış və səylərdən sonra "Native advertisement" (Təbii reklam) adlanan bu reklam formatı yaradılır və 2015-ci il iyunun 7-də "Twitter" "Namo Media"nı aldığını elan edir...

Beləliklə, Tural Bədirxanlı və həmkarı ABŞ-da interaktiv reklam proqramını çox yüksək məbləğ müqabilində "Twitter"-ə satırlar. Beləliklə, "Twitter"-in Nyu-York ofisi qurulur, yeni ideyalar, imkanlar meydana çıxır və onların üzərində işləməyin vacibliyi yaranır. "Twitter" yeni uğur və yeni ideyalarının reallaşdırılması üçün həmvətənimizə əməkdaşlıq təklif edir. "Solidshape" şirkətinin həmtəsisçisi və baş direktoru olan Tural Bədirxanlı hazırda da "Twitter"-lə işbirliyini və tədqiqatlarını uğurla davam etdirir.

Gənc milyonçu müsahibəsində bildirir ki, qazanılan pul onun üçün kifayət qədər sərbəstlik yaradan faktordur. "Buna görə də pula həmişə istədiyim bir işə sahib olmaq və fikirlərimi reallaşdırmaq üçün lazımlı bir vasitə kimi baxmışam və bu faktı bu gün də belə dəyərləndirirəm. Hələ Google-da olanda əlimə bəlli bir vəsait gəldi və ilk qərarım işdən çıxmaq oldu. Ətrafdakıların qınağına tuş gələrəm deyə, bu barədə heç kəslə məşləhətləşmədim. Niyə? Çünki yeni ideyaları reallaşdırmaq üçün sərbəstlik və vaxt lazım idi. Bu gün də pul mənim üçün tətbiq vasitəsidir, sadəcə ideya və planların olmalıdır..."

Məşhur "Silikon vadisi"nin "Google", "Twitter" kimi şirkətlərində çalışmış Tural Bədirxanlı Azərbaycanla əlaqələrini heç vaxt kəsməyib, 2022-ci il mayın 26–29-da Bakıda "TEKNOFEST Azərbaycan" layihəsi çərçivəsində keçirilən "Teknofest" Aviasiya, Kosmos və Texnologiya Festivalında iştirak edib, Azərbaycanda yerli startap ekosistemi, startapların qurulması zamanı yaranan çətinliklər və texnologiya sahəsi ilə bağlı fikirlərini bölüşüb, əməkdaşlıq üzrə təkliflərlə çıxış edib. "Teknofest"in ölkəmizdə keçirilməsini Azərbaycan gəncliyi üçün texnologiyanı öyrənməsi, inkişaf etdirilməsi üçün çox böyük addım adlandıran gənc azərbaycanlı "TurkicWorld"-a açıqlamasında qeyd edib ki, dünyada texnologiya artıq mühim bir alətə çevrilib. Onu bilməyən, öyrənməyən gənclik dünyada uğur qazana bilməz. Bunun üçündə "Teknofest"in Azərbaycanda keçirilməsi, "Baykar"ın burada müəyyən işlər görməsi çox dəyərlidir. Bu, Azərbaycan gəncliyi üçün texnologiyanı öyrənmək, inkişaf etmək üçün çox böyük bir fürsətdir.

Sonda bir faktı da qeyd edək ki, Tural Bədirxanlı ABŞ-ın Fordhem Universitetində təhsil alan soydaşımız Gültəkin Qaradağlı ilə ailə həyatı qurub. Xatırladaq ki, Gültəkin Qaradağlı ATV-nin keçmiş prezidenti, Əməkdar jurnalist Vüqar Qaradağlının qızıdır.

***Hazırladı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

Qarabağ – dirçəlişin addımları

# Su gələn arxa bir də gələr...

## Bu, bölgənin enerji təminatını yüksəldir, azad torpaqlara can verir

**Azərbaycan su təminatına görə dünyanın az təmin olunan regionlarından sayılır. İçməli suya olan tələbatı və kənd təsərrüfatının ehtiyaclarını ödəmək üçün potensial baxımdan kifayət qədər su ehtiyatlarımız yoxdur. Ölkənin ümumi su ehtiyatları 28,5-30,5 kubkilometr arasında dəyişir. Quraq illərdə bu göstərici azalaraq 22,6 kubkilometrə düşür. Onun da 70 faizi ölkə xaricində formalaşır.**




Bu barədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəsmisi Riad Axundzadə deyib: “Azərbaycan su baxımından riskli ölkələr qrupunda yerləşir. Qlobal iqlim dəyişikliklərinin təsirləri bütün dünyada olduğu kimi, ölkəmizdə də hiss olunur. Belə ki, Azərbaycanın su ehtiyatlarının, təxminən, 70 faizi ölkə xaricində formalaşır. Kür, Araz, Samux çayları ilə yanaşı, ümumilikdə, 21 transsərhəd çay vasitəsilə ölkəmizə daxil olan su ehtiyatları yerüstü su ehtiyatlarımızın 70 faizini təşkil edir. Digər su ehtiyatları ölkə sərhədləri daxilində yerli çaylardan formalaşır. Bu su ehtiyatlarında işğaldan azad edilmiş ərazilərin payı 25 faizdir”.



Hazırda Qarabağ və Şərqi Zəngəzurun ümumi su ehtiyatları 2,1 milyard kubmetr həcmində dəyərləndirilir. Bu ehtiyatlardan səmərəli istifadənin təmin edilməsi məqsədilə, ümumilikdə, 9 ədəd su anbarı və onlardan qidalanan kanalların əsaslı şəkildə yenidən qurulması nəzərdə tutulmuşdu. Artıq işğaldan azad olunmuş sahələrdə ərazilərin yenidənqurulması və bərpası üçün ayrılan vəsait hesabına Tərtər rayonunda yerləşən Suqovuşan, Ağdam rayonu ərazisində yerləşən Xaçınçay su anbarları, o cümlədən Tərtərçay sol sahil kanalının təmir-bərpası işləri başa çatdırılıb.

Suqovuşan su anbarı ilə Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam və Ağcabədi rayonlarının torpaq sahələri suvarılır. Həmin su anbarı istifadəyə verilməklə əkinlərin davamlı aparılmasına, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə təminat yaradıb.

Xaçınçay vasitəsilə Ağdamın Qərvənd, Xındırıstan kimi kəndlərinin 2 min hektara yaxın əkin sahələri suvarılır. Yaxın gələcəkdə Quzanlı kəndi də bu anbardan su götütəcək. Ümumilikdə, Xaçınçay su anbarı vasitəsilə 8 min hektara yaxın əkin sahəsinin suvarılması nəzərdə tutulur.

Köndələnçay –1, Köndələnçay – 2 və Aşağı Köndələnçay su anbarlarının təmir–bərpa işləri isə yaxın günlərdə tamamlanacaq. Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müşaviri Əsəd Şirinov qurumun ilin yekunları ilə bağlı keçirdiyi tədbirdə deyib: “Laçın rayonu ərazisində yerləşən Zabuxçay su anbarının tikintisi davam etdirilir. Qız qalası su anbarından sugötürən magistral kanalın, Həkəriçay və Bərgüşadçay su anbarları və onlardan qidalanan kanalların inşası işlərinə isə qarşıdakı illərdə başlanılması nəzərdə tutulub. Kanalların təmir-bərpası suya tələbatı ödəmək üçün olduqca vacibdir. Çünki anbarlardan suvarılan əkin sahələrinə verilən su itkilərinin azaldılması hesabına daha yüksək su göstəricilərinə nail olunması qıtlıq dövründə aqrar məhsulların artırılması üçün olduqca vacibdir.

Qeyd olunan layihələr Azərbaycanda əhali, kənd təsərrüfarı və sənayenin su təchizatı probleminin həllində çox böyük uğur olmaqla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi ayonlarının sosial-iqtisadi inkişafına önəmli töhfədir. Eyni zamanda, ərazidə mövcud subartezian quyularının istifadəsinə tələbatın azalmasına səbəb olacaq. Bunlardan başqa, Qarabağ və Şərqi Zəngəzurda sovet dövründə tikilərək istifadəyə verilmiş 2 böyük su anbarı var. Ümumi su tutumu 560 milyon kubmetr olan Sərsəng su anbarının istifadəsi 125 min hektara yaxın torpaq sahəsinin suvarılma suyu ilə təmn etməyə imkan yaradacaq. Zəngilan və Cəbrayılın ərazisində yerləşən, su tutumu 1,6 milyon kubmetr olan Xudafərin su anbarı isə 75 min hektar yeni ərazinin suvarılmasını təmin edəcək. Onun suyundan həm də İran tərəfi istifadə edir.

Bölgənin Tərtər, Bazarçay (Bərgüşadçay), Həkəri kimi əsas və digər kiçik çayları həm də böyük enerji potensialına malikdir. Azərbaycan Respublikası ərazisində 5 milyard kVt•saat enerji almaq üçün alternativ enerji mənbələri mövcuddur və mütəxəssislər bildirirlər ki, bunların 60 faizi Qarabağ və Şərqi Zəngəzurda olan çayların payına düşür. Bu, ilk növbədə, çayların yuxarı hissələrində meyilliliyin və sululuğun çox, axının sürətili olması ilə bağlıdır. Bu səbəbdən də üzərlərində su elektrik stansiyaları tikilib. Hətta sovet dövründə tikilən SES-lər də var. Onlardan biri “Tərtər” SES-dir. 1976-cı ildə Tərtərçayın üzərində Sərsəng su anbarı ilə birgə inşa edilib. Stansiya hər birinin gücü 25 MVt olan 2 hidroaqreqatdan ibarətdir. 1990-cı ildə stansiyanın il ərzində istehsal etdiyi elektrik enerjisi 81,9 mln. kVt•saat olub.

Qarabağ və Şərqi Zəngəzur işğaldan azad olunanda isə bölgədə 30-a yaxın kiçik su elektrik stansiyaları vardı və onlar düşmən tərəfindən dağıdılmışdı. Təbii olaraq yararsız vəziyyətə salınmış bu elektrik stansiyaları bərpa edilərək istismara verilir və yeniləri tikilir. Azad olunmuş ərazilərdə fəaliyyətə başlayan ilk elektrik stansiyası isə Laçının Güləbird kəndindəki 8 meqavatt gücündə su elektrik stansiyası olub. Bu günədək işğaldan azad edilən ərazilərdə 26 yerdə su-elektrik stansiyası tikilərək yenidən qurulub və hazırda isə 9 yerdə tikinti işləri davam etdirilir.

Ümumiyyətlə, Qubadlı, Zəngilan, Laçın və Kəlbəcərdə böyük və kiçik çayların üzərində bir neçə elektrik stansiyası qurmağa imkan var və bu çaylar üzərində qurulan stansiyalar enerji mənbəyinin böyük bir hissəsini təşkil edəcək.

Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları üzərində elektrik stansiyalarının inşasının başa çatdırılması da gücümüzə güc qatacaq.

Sözügedən SES-lər və bərpası və inşası planlaşdırılan digər pilot layihələr Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı enerjini təmin etməyə imkan verəcək, həm torpaqların suvarılmasında xüsusi rol oynayacaq, həm də iqtisadiyyatımızın irəliləyişində dönüş yaradacaqdır.

# Ağdam Sənaye Parkı öz məhsulları ilə böyüyür

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti “Veliev” MMC-nin istehsal etdiyi beton prefabrik məhsulları sənaye parkının digər rezidentləri üçün qurulan istehsal müəssisələrinin inşasında istifadə edilir. Bunu MMC sədrinin müşaviri Eyruz Musayev deyib.**



Onun sözlərinə görə, MMC-nin Ağdam Sənaye Parkındakı beton prefabrik məhsulları zavodu 2022-ci ilin sonu-2023-cü ilin əvvəlindən fəaliyyətə başlayıb. Hazırda zavodun məhsulları sənaye və anbar binalarının tikilməsi üçün istifadə edilir. Sahibkarlar tərəfindən zavodun məhsullarına maraq böyükdür: “Sovetlər dövründən sonra Azərbaycanda beton prefabrik məhsullarının istifadəsi dayandırılıb. Sahibkarlar tikinti zamanı həmin məhsulların əvəzinə dəmirlərdən istifadə edirlər. Lakin o da beton məhsullarına nisbətən baha başa gəlir. Beton prefabrik məhsullarının dəmirdən qat-qat ucuz və keyfiyyətli olması bizim məhsullara olan marağı artırır”.

# Ləğv prosesində olan “Dəmirbank” ASC-nin kreditorlarının nəzərinə!

Əmanətlərin Sığortalanması Fondu ləğv prosesində olan "Dəmirbank" ASC-nin kreditorlarının diqqətinə çatdırır ki, növbəlikdə sonuncu sırada olan təminatsız kreditorların tələblərinin növbəti ödənişi 5 fevral 2024-cü il tarixdən etibarən başlayacaqdır.

Tələblərin ödənişi nağdsız qaydada həyata keçiriləcəkdir.

Kreditorlardan xahiş olunur ki, tələblərin ödənişi ilə bağlı Əmanətlərin Sığortalanması Fondunun Bakı şəhəri, Babək prospekti 16 ünvanında yerləşən binasına müvafiq sənədlərlə müraciət edərək ödəniş üçün bank rekvizitlərini təqdim etsinlər.

Əlavə məlumat almaq üçün ünvan və əlaqə nömrələri:
**Bakı şəhəri Babək prospekti 16.**
**Qaynar xətt: (+994) 941**

# AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ BAKI SLAVYAN UNİVERSİTETİ

***aşağıdakı fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün müsabiqə elan edir:***

1. Qərbi Avropa dilləri fakültəsi üzrə - 1 yer
2. Xarici dil müəllimliyi fakültəsi üzrə - 1 yer

Qeyd – müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız aşağıdakı 4,5 və 6-cı bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər):

1. Rektorun adına ərizə
2. Kadrlar uçotunun şəxsi vərəqəsi
3. Tərcümeyi-hal
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri
5. Elmi və elmi metodiki işlərin siyahısı
6. Fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**Telefon** – 599-08-70, daxili nömrə 208.
**Ünvan** – AZ 1014, Bakı şəhəri, S.Rüstəm küçəsi 33.

**REKTORLUQ**

# Öz daşımız, çınqılımız, əhəngimiz...

## Yerli materiallar quruculuğa təkan verir

**Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində əsas diqqət yetirilən prioritet məsələ ermənilər tərəfindən dağıdılmış şəhər və kəndlərin bərpası, onların zəruri infrastrukturla təminatıdır.**

Bu istiqamətdə işğaldan azad edilmiş ərazilərdə aparılan bütün yenidənqurma, bərpa və şəhərsalma işləri qabaqcıl urbanizasiya modellərinin tətbiqi ilə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcək şəhərsalma prinsipləri və normalarına uyğun həyata keçirilir. Genişmiqyaslı tikinti-quruculuqi işlərinin sürətlə aparılması isə həmin ərazidə tikinti materiallarına tələbatı artırır. Bölgədə isə tikinti materialları, o cümlədən daş və sement yataqları çoxdur. Betonda ən çox istifadə olunan çınqıl daşları ilə bağlı da problemlər yoxdur. Çünki çay tipli yataqlar var. Bu yataqlar tikinti işlərinə cəlb edilir. Bu gün Ağdamda gedən bərpa–quruculuq proseslərində məhz Ağdamın ağ daşı, yerli xammal tikinti materialı kimi istifadə olunur. Ağdam şəhərində, Qiyaslı və Salahlı Kəngərli kəndlərində evlər o materiallardan tikilir.

Cəbrayılda da tikinti-bərpa işlərində yerli xammaldan istifadə ediləcək. Bu məqsədlə rayonda tikinti materialları yataqları həraca çıxarılır. Məsələn, Tulus mişar daşı yatağının 48,3 hektar ərazisi, Tinli və Göyçərçin Veysəlli sement xammalı yataqlarının isə müvafiq olaraq 20,3 və 20 hektar ərazisi hərraca hazırlanır. Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi İdarə Heyətinin sədr müavini Azər Şükürov işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun Zəngilanda keçirilən iclasında deyib.

Bildirilib ki, yerli tikinti materiallarlından əsasən, Cəbrayıldakı tikinti-quruculuq işlərində istifadə olunacaq. Hazırda rayonda onlara tələbat çoxdur. Çünki Cəbrayıl şəhərində, Xudafərin qəsəbəsi və Horovlu kəndində yaşayış binaları və mənzillər tikilir. Yeni Baş plana əsasən, ümumi ərazisi 625 hektar olacaq müasir Cəbrayıl şəhəri əvvəlki şəhəri və yaxınlıqdakı 5 kəndi əhatə edəcək. Birinci mərhələdə yaşayış məhəlləsində 33 binanın inşası nəzərdə tutulub. 2026-cı ilin sonunadək 712 mənzil təhvil veriləcək.

Horovlu kəndində də fərdi evlərin tikintisinə başlanılıb. Tikinti işləri zamanı ekoloji aspektlərə xüsusi diqqət yetirilir. Kəndin layihələndirilən ümumi ərazisi 248,1 hektardır. Perspektivdə kənddə 867 ailənin yaşaması nəzərdə tutulub. Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı kəndləri ilə birlikdə layihələndirilib. Birinci mərhələdə 334 fərdi evin tikilməsi planlaşdırılır. Xudafərin qəsəbəsində isə 149 ev tikiləcək.

Beləliklə, Cəbrayıl rayonundakı tikinti materialı yataqlarının istismara verilməsilə evlərin inşasında, yerli xammal əsas rol oynayacaq, eyni zamanda tikinti materialları məhsulları istehsal edən müəssisələrin yaranmasına səbəb olacaq. Başqa ərazilərdən tikinti materiallarının gətirilməsi minimuma düşəcək. Bu, iqtisadi baxımdan sərfəlidir. Çünki kənardan daşınan tikinti materialları maya dəyərinin artmasına və vaxt itkisinə səbəb olur. Bu rayonun ən vacib üstünlüyüdür.



Zəngilanda da müxtəlif tikinti materialı yataqları ilə zəngindir: üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı, təsdiq edilmiş ehtiyatları 129 milyon ton olan Zəngilan (Daşbaşı–Əsgurum) əhəngdaşı, ehtiyatları 6 milyon 24 min ton olan qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı, ümumi ehtiyatları 28 milyon 943 min kubmetr təşkil edən Bartaz–I və Bartaz–II porfirit, ehtiyatları 1 milyon 102 min kubmetr olan kərpic–kirəmid istehsalına yararlı Zəngilan gil və ehtiyatları 17 milyon 367 min kubmetr olan Zəngilan qum-çınqıl qarışığı yataqları mövcuddur.

A.Şükürov bildirib ki, yataqlardan ərazisi 15 hektar olan Bartaz–II tikinti daşı yatağı hərraca çıxarılır. O, Qubadlı rayonu üzrə isə Hacılı mişar daşı yatağının 20 hektar ərazisinin hərraca hazırlandığını da diqqətə çatdırıb. Bu yataqlardan yalnız Zəngilanda deyil, Cəbrayıl və Qubadlıda tikinti işlərində istifadə edilə bilər. Nəzərə alaq ki, son bir ildə Cəbrayıl, Zəngilan və Qubadlıda Prezident İlham Əliyevin iştirakı ilə doqquz kənd, bir qəsəbə, üç rayon mərkəzində yaşayış massivlərinin, məktəb və xəstəxanaların təməli qoyulub. 2026-cı ilin sonuna kimi Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarında üç şəhər mərkəzi, beş şəhər və 24 kəndin salınması planlaşdırılır. Bunlar yerli tikinti materialları yataqlarının işə salınmasını sürətləndirəcək.



# Doğma yurdum – Laçınım!

**Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələr doğma yurdlarına qayıdırlar.**

Köçürülən ailələr vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşırlar. Son köç Laçın şəhərinə olub. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə – 72 nəfər köçürülüb. İndiyədək Laçın şəhərinə 431 ailənin, yəni 1627 nəfərin daimi məskunlaşması təmin edilib.

Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Laçın rayonunun yenidən tikilən Zabux kəndində də həyat canlanır. Doğma yurda qayıtmış 203 ailənin, yəni 783 nəfərin dayanıqlı məskunlaşması təmin edilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Böyük Qayıdış prosesinin sürətlə həyata keçirildiyini vuğulayan Milli Məclisin deputatı Mahir Abbaszadə Zabux kəndinə köçürülmənin yüksək səviyyədə aparıldığını, burada layiqli həyat şəraitinin təmin edilməsi üçün zəruri infrastrukturun qurulduğunu bildirib.

**Səhifəni hazırladı:**
**Pünhan ƏFƏNDİYEV**
**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 23 (30427) 3 fevral 2024-cü il, şənbə

Türk tarixindən gələn səda

# Böyük vəzirin çöküşü

## Parqalı İbrahim Paşa Sultan Süleymanın ən yaxın dostu olsa da...

**Osmanlı imperiyasının böyük vəziri Parqalı İbrahim Paşanın ömrünü necə başa vurması haqqında mübahisələr bugünədək davam etməkdədir. Gəncilk dostuna hədsiz bağlanan və ona son dərəcə etibar edən Sultan Süleymanın onu öz əli ilə öldürməsinin səbəbləri nədir? Axı böyük dövlət başçısı hədsiz səlahiyyətlər verdiyi, hətta İbrahimi özündən belə çox qoruyacağına and içmişdi!**






Xatırlayırsınızsa, Türkiyə sənətçilərinin, həqiqətən, böyük sənətkarlıqla çəkdikləri “Möhtəşəm yüz il” serialının 3-cü hissəsində İbrahim Paşanın edam edilməsi səhnəsi canlandırılır. Böyük vəzir birbaşa sultanın öz qəsrində həyatdan məhrum edilir. Parqalı İbrahim cəlladların əlindən qurtulmağa çalışaraq, sultanı haraylayır, ancaq bu haraya gələn olmur – onu boğub öldürürlər. Doğurdanmı, real tarix bundan ibarətdir?

Gəlin əvvəlcə parqalı İbrahim Paşa haqqında maraqlı faktlara diqqət edək:

İbrahim Paşa Yunanıstan yaxınlığında, Parqa adlı bir yaşayış məntəqəsində anadan olub. Atası balıqçı olan İbrahimin yunan və italyan mənşəli oduğu güman edilir. 6 yaşı olanda dəniz quldurları tərəfindən oğurlanaraq Manisa şəhərində yaşayan bir qadına satılır. Qadın ona təkcə sadə bilikləri deyil, həm də skripkaya bənzər bir alətdə gözəl ifa öyrədir.

Şahzadə Süleyman Manisada olanda İbrahimlə tanış olur və onu öz yanına xidmətə götürür. İbrahim Paşa 13 il müddətində Osmanlıda sədrəzəm (Sədrəzəm parqalı İbrahim Paşa)– böyük vəzir olur. O, fars, serb və italyan dillərini bilirdi. İbrahim paşa çoxlu mütaliə edirdi və ədəbiyyata böyük diqqət yetirirdi. Tarixi mənbələrdə göstərilir ki, parqalı çox gözəl diplomat olub.

Venetsiyanın səfiri Petro Braqadino 1526-cı ildəki qeydlərində parqalı İbrahim Paşanı belə təqdim edir: “O, Sultan Süleymanın ən yaxın məsləhətçisi idi. Başqa dövlətlərin başçıları və onların torpaqları ilə maraqlanırdı. Maraqlı bahalı əşyalar alar, çoxlu mütaliə edər və qanunları yaxşı bilərdi. Sultana sadiq idi”.

Bəs İbrahim Paşa niyə Sultan Süleymanın qəzəbinə gəldi? Dövrün tarixçiləri yazırlar ki, İbrahim Paşa qürurunun qurbanı olub. Sadə bir şah gözlənilmədən dövlətin ikinci şəxsi rütbəsinə yüksəldikdən sonra, İbrahim səlahiyyətlərinin ona verdiyi əzəmətin öhdəsindən gələ bilmədi. Həyatının böyük bir dövründə sadə qul olan sədrəzəm özünü sultana bərabər tutaraq bir-birinin ardınca çox qorxulu səhvlərə yol verməyə başladı. Onun bu davranışı Süleyman Sultanı o qədər üzdü ki, dostuna və həmfikrinə olan inamı sarsıldı və o, vədinə xilaf çıxdı.

Türk yazarı İsmayıl Mətin “Osmanlıların qanlı tarixi” ədəbi-sənədli əsərində İbrahim Paşanın ölümünün təfərrüatları geniş təsvir edilmişdir.

Sultan Süleymanın daha çox Parqalı kimi çağırdığı İbrahim Paşa hərbi yürüşdən yenicə qayıdır. Müqəddəs Ramazan ayının başladığı ilk günlər idi. Sultan onu şam yeməyinə dəvət edir və onlar köhnə vaxtlarda olduğu kimi uzun-uzadı xoş danışırlar. Şam yeməyi başa çatandan sonra İbrahim sarayına qayıtmaq istəyir, lakin Sultan onun öz sarayında gecələmisini istəyir.

Vəzir itaətkarcasına saraydakı otaqlardan birinə keçir və uzanıb yatır. Elə ki, Parqalının yuxuya getdiyini deyirlər, Sultan cəlladları çağırtdırır. Onlar otağa daxil olub kəndiri Parqalının boğazına keçirirlər. Paşa qəfil oyanıb yerindən qalxır və cəlladlara müqavimət göstərməyə çalışır. Əsl döyüş başlayır. Səsi bütün saray əhli aydın eşidir.

İbrahim xeyli müqavimət göstərir, nəhayət, gücdən düşür. Onun ölümü çox ağrılı və əzablı olur. Hətta danışırmışlar ki, sultan bütün baş verənləri gizli pəncərədən müşahidə edirmiş. O, vaxtı ilə sədaqətli dostu və həmfikri olmuş Paraqalının bağırtısını və son nəfəsdə necə xırıldadığını belə eşidirmiş.

Ümumiyyətlə, İbrahim Paşanın edamı ilə bağlı şayiələr və dedi-qodular çox olub. Bəziləri iddia edirlər ki, yataq otağının divarlarında qan izləri olub. Yəqin, vəzir çox güclü olub və həyatı uğrunda elə inadkarlıqla mübarizə aparıb ki, cəlladlar xəncərləri işə salmağa məcbur olublar.

İbrahim Paşanın həyatının son dəqiqələri bir çox ədəbi mənbələrdə geniş təsvir edilib, lakin yazıçıların sözü və fikirləri heç də həmişə üst-üstə düşmür. Məsələn, Ayqut Can özünün “Parqalının ölümü” əsərində hadisələri tamam fərqli şəkildə təsvir edir. Müəllif iddia edir ki, vəzir sultanın otağında ölüb. Guya Sultan Süleyman vəziri yatızdırmaq üçün onun yeməyinə dərman tökdürübmüş. Ancaq dərman çox güclü təsirə malik olub və Parqalı elə yuxuya gedib ki, bir daha yerindən qalxmayıb. Cəlladlar da elə sarayda gizlənibmişlər. Hakimi-mütləq işarə verəndə cəllad çıxıb və əvvəlcə ölümə məhkum edilmiş şəxsə xəncərlə zərbə endirib, sonra isə ipək kəndirdən istifadə edib.

Belə məlumatlar da var ki, İbrahim Paşanın hər şeydən xəbəri var imiş. Sultan hadisələr baş verməmişdən 7 gün əvvəl ona bildiribmiş ki, onun edam edilməsinə fətva alıb. Bundan sonra vəzir hər gün sultanla onun sarayında şam edirmiş, hətta son saata qədər. Bir həftə müddətində Sultan Süleyman mahiyyətcə İbrahimə xilas olmaq üçün yollar qoyub – Parqalı mühafizəçilərin nəzarətində saxlanılmayıb və asanlıqla ölkədən qaça, amansız edamdan canını qurtara bilərmiş. Ancaq vəzir buna getmir və sultanın qərarı ilə barışır.

Bu maraqlı faktı Parqalının şəxsi gündəliyindəki qeydlərə istinad edən bir çox tarixçilər də bildirirlər. Məktublardan aydın olur ki, İbrahim, həqiqətən, hər şeyi bilib, ancaq öz ağasının ədalətinə ümid edərək, sona qədər sultana sədaqətli qalıb.

**(ardı növbəti sayımızda)**

***İlqar RÜSTƏMOV***
***XQ***

# Xan qızı Ağabəyim ağa

### “Əfsus ki, yarım gecə gəldi”

**Qarabağ xanı İbrahim xanın qızı Ağabəyim ağa şairə imiş. Rəvayətə görə, o, hələ gənc yaşlarında öz əmisi oğlu, gözəl qamətli, mərdliyi və şücaəti ilə ad qazanmış Məhəmməd bəyə vurulur. O zaman Məhəmməd bəy ağır döyüşlərdə qoşuna başçılıq edirmiş.**

Bir gecə vacib bir məsələdən ötrü Şuşaya–İbrahim xanın yanına gələn Məhəmməd bəy elə həmin gecə geriyə, vuruşan qoşunun yanına qayıdır. Ağabəyim ağa bu münasibətlə dillər əzbəri olan məşhur beytini yazır:

***Əfsus ki, yarım gecə gəldi, gecə getdi,***
***Heç bilmədim ömrüm necə gəldi, necə getdi...***

### Şahın anasının libasında...

İran şahı Ağa Məhəmməd şah Qacarın başı Şuşada kəsildikdən sonra, İranla Qarabağ xanlığı arasında münasibətlər düzəlsin deyə İbrahim xan qızı Ağabəyim ağanı Tehrana, Fətəli xanın hərəmxanasına girov göndərir.

Belə rəvayət edirlər ki, Fətəli xanın bir xüsusiyyəti varmış. Onun hərəmxanasına daxil olan xanımlar ilk dəfə bəzəkli paltarlarla dolu bir otağa girməli imiş. Onlar oradan istədiyi paltarı seçib şahın hüzuruna gedirmişlər.

Ağabəyim ağa müxtəlif yollarla gizlicə öyrənibmiş ki, şahın anasının paltarı da oradadır.



Onu həmin otağa gətirdikdə xanım birbaşa şahın anasının paltarı saxlanan guşəyə gedir və həmin libası geyinir.

Şah Ağabəyim ağanı anasının paltarında gördüyündən ona heç vaxt yaxın düşmür.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava

# Yağmursuz və dumanlı daha bir gün...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 3-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 1-4°, gündüz 6-9° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-12° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq. Gecə bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

***Q. QASIMOV***
***XQ***

# Şamaxı Rəsədxanasından bildiriblər ki...

**Böyük Britaniya, Braziliya, Çili, Almaniya, Cənubi Koreya və İtaliyadan olan astronomlar tez-tez püskürmələr müşahidə olunan protoulduzların tədqiqatı çərçivəsində Çilidəki Vista və VLT teleskopunda 222 ulduzun müşahidəsini apararaq, bir cəhddə 32 belə protoulduz aşkar ediblər. Lakin müşahidə olunan fərqli obyektlər bu nəticəni kölgədə qoyub.**

Bu barədə Elm və Təhsil Nazirliyi N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası məlumat verib.

On il ərzində davamlı izlənən ulduzlardan 21 qırmızı nəhəng ulduzun parlaqlığının spesifik dəyişkənliyi aşkar olunub. Bu ulduzlar Yerdən 30 min işıq ili məsafədə yerləşir və saylarının daha çox olduğu güman edilir.

***XQ***

Beynəlxalq həyat

# Korsikalılar Fransa polisinə etiraz edirlər

**Bütün çətinliklərə baxmayaraq, korsikalılar ölkələrinin azadlığı uğrunda mübarizəni əzmlə davam etdirirlər. Ölkədə yeni yaranan “Nazione” Partiyası elə ilk gündən 600–dən çox fəalı bir araya gətirib. Partiyanın belə uğur qazanması fransız hökumətinin qəzəbi ilə üzləşib. Fransa hökuməti siyasi partiyanın bu uğurunu həzm edə bilməyib və bunu fəalların evlərinə hücum edərək, repressiya ilə göstəriblər.**



Yeni partiyanın assambleyasının ilk iclasından iki gün sonra fransız polisinin çox qəddar və amansız repressiyasına etiraz olaraq, “Nazione” Partiyası Bastiada mətbuat konfransı keçirib.

Konfransda partiyanın üzvləri və sözçüsü çıxış edərək, son günlər fransız polisinin törətdiyi repressiyanı qətiyyətlə pisləyiblər. Polisin həbs etdiyi və Parisə göndərdiyi “Nazione”nin iki fəalının dərhal azad olunmasını tələb ediblər.

**XQ**

# ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin kollektivi Əməkdar jurnalist

**RƏHMAN ORXANIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Rafiq Aslanova əzizi

**ZAKİR ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Təşkilatı universitetin ictimai fənlər kafedrasının müəllimi Cəfər Xanəliyevə atası

**VİDADİ XANƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əməkdar jurnalist Sadiq Gözəlov qələm dostu

**RƏHMAN ORXANIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3415
SİFARİŞ 153
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00